ФИРУЗЯ MӘMMӘDLİ

# ДИЛЯК ЙАХАСЫНА ДЮННЯМ ЙЕНИДЯН

«VEKTOR» Nəşrlər Evi
Bakı – 2006

Redaktor:
*Prof. Dr.* **Elçin İSGƏNDƏRZADƏ**

Rəssam:
**ƏDALƏT**

**Firuzə MƏMMƏDLİ «DİLƏK YAXASINA DÖNNƏM YENİDƏN» «Vektor»** Nəşrlər Evi. Bakı, 2006. 256 səh.

*Firuzə Məmmədli müasir Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən olub, şəxsiyyəti ilə poetik ruhu bir-birini tamamlayan sənət adamlarımızdandır.*

*Bu vaxta kimi şairənin 20 kitabı, 100-ə yaxın elmi və publisistik məqaləsi işıq üzü görmüşdür.*

*Bir çox beynəlxalq poeziya festivallarının və şeir müsabiqələrinin baş mükafatçısıdır.*

*«Dilək yaxasına dönnəm yenidən» kitabına şairin son illərdə yazdığı, gündəlik mətbuatdan və ədəbi jurnallardan oxuculara tanış olub, onların rəğbətini qazanmış şeirləri toplanmışdır.*

M $\frac{4702060207-217}{121}$ *(qrifli nəşr)*

© **«VEKTOR» BEYNƏLXALQ ELM MƏRKƏZİ, 2006**



# HƏR GÜNÜM –
# HƏSRƏT YUVASI

## SEVGİ MƏKTUBLARI

### *Birinci məktub*

Təkəm,
tək-tənha.
Çəkilmişəm özümə –
Küskünlüyümə.
Tale
Yenə sərt baxdı üzümə
Sənin baxışınla.

### *İkinci məktub*

Məni sındıra-sındıra
Bir şələ çörçöp etdilər.
Sonra tonqal çatdılar
Bu çörçöpdən, -
Görəsən ki,
Necə yanıram.

### *Üçüncü məktub*

Soyumusan,
Bilirəm, buz kimisən
Öz soyuqluğunda.
Gəl, qızın tonqalımda,
Yanacağam
sən gələnəcən.

## *Dördüncü məktub*

Gələcəksən
Soyuq əllərinlə
Soyuq külümü ələməyə.
Məni söz-söz
tutmağa,
söz-söz
güllələməyə.

## *Beşinci məktub*

Harda itirdim səni?
Harda düşdüm qəlbindən,
Cibindən saldığın
məktub kimi.
Qəribə deyilmi –
Qəlbindən salan sən,
İtirən mən?!

## *Altıncı məktub*

Sənə ümidli
deyiləm daha.
Səndən əlimi
Üzmüşəm.
Amma, bax bu…
Sinəmdəki
bu bədbəxt
gözünü yolundan
çəkmir ki, çəkmir.

### *Yeddinci məktub*

Haçansa
döyəcəksən yenə
bu qapını.
Onsuz da gecəli-gündüzlü
həsrətinə
vurğun qapını.

### *Səkkizinci məktub*

Təkəm,
tənhalığım qədər yalqız
bir də özüməm.
Amma, yox,
İztirabların
Mənimlədir,
tənha qoymurlar
məni.

*2004*

## GÜNDƏLİKLƏR

### *I gün*

Vəfasız bir gündü;
Ömrü – dörd yol ayrıcı.
Özümdən
hansı tərəfə qaçım –
bilmirəm.

### *II gün*

Çıxıb gedəcəyim
günə düşmüşəm.
Əlim-ayağım –
sevinc içində.
Heyif ki,
daxilimdəki
ayrılıq marşı
məni ağrıdır.

### *III gün*

Axır ki,
Əlindən qaçıb qurtardım.
Məni nəfəsilə
isidən əlindən,
sığalıyla
uyudan əlindən,
həniri ilə

sevən,
sevdirən əlindən…

### *IV gün*

Günlərim - fəryad dolu,
günlərim – uzaqlığın dolu.
Günlərim ayrılığın dolu.
Yoxluğun dolu.
Ölümümə tələsirəm,
Gəlsənə!..

### *V gün*

Gələcəyin günü də
cırıb atdım
təqvimdən.
Ümidim  yeni günə
qalır –
Gəlməyəcəyin günə.
Tanrım,
onu necə cıracağam?

### *VI gün*

İçərimdə
kimsə səni çağırır.
Bu gün bu
mən deyiləm.
Mən səndən qaçanam,

Çağıran –
səni özüylə gətirən.
Ah,
Daha dözə bilmirəm…

### *VII gün*

Ayrılığın
Ağ günü olmazmış.
Mən özümdən
qaça bilmədim.
Qayıdıram sənə,
Qarşıla…

### *VIII gün*

Təbəssümünçün
Ölürdüm.
Gözlərinin
xumarı üçün
ölürdüm.
*Dilinin*
Şirinliyi üçün
ölürdüm.
Ah,
ölüm nə gözəlmiş!..

*2004*

## HAÇAN GƏLİRSƏN

Kəsib ayrılığın bəndi-bərəni,
Başıma, gözümə həsrət ələnir.
Mənə gəlişindən müjdə verəni
Basım da bağrıma, qucum, gəlirsən,
Haçan gəlirsən?

Hansı məkandasan, vaxtdasan hələ?
Sədan göydən gəlir, haqdasan hələ.
Olmaya təyyarə taxtdasan hələ? –
Mən qanad çıxarım, uçum, gəlirsən,
Haçan gəlirsən?

Əydi qamətimi ayrılıq yükü,
Axır ki, gəlirsən, Allaha şükür.
Gün keçir, vaxt ötür, qaranlıq çökür, -
Qapını indidən açım, gəlirsən,
Haçan gəlirsən?

Uçur şad xəbərlər üstümə daha,
Əriyər buzlaqlar istimə daha.
Taledən ad-san da istəməm daha,
Şöhrətim, başımın tacı, gəlirsən,
Haçan gəlirsən?

Yoxdur bu gəlişin vaxtı, bivaxtı,
Bil ki, gəlişinə oyanır baxtım.
Yetər ki, boylandım, yetər ki, baxdım,
Durum qabağına qaçım, gəlirsən,
Haçan gəlirsən?

*2005*

# VAXTIMI BÖLÜRDÜM

Səni də boşladım, səni də atdım,
Gərəyim deyilsən, məndən uzaq gəz.
Fikrimdən sən adda sənədi atdım,
Ver öz yoxluğunla mənə cəza, gəz.

Vaxtımı bölürdüm, vaxtım bol idi,
Sənlə gün keçirmək bir gün deyilmiş.
İstək oyununda bir futbol idi,
Ardınca qaçdığım sevgin deyilmiş.

Sən də bir ayrı cür sınaqdın mənə,
Gördüyüm günlərin boş damarıydın.
Beş günlük, on günlük qonaqdın mənə,
Çəkilib durduğum yol kənarıydın.

Ayrılıq küləyi əsdi hayandan?
Sənsizlik duyğusu daha yad deyil.
Mənə ayırdığın sevgi payı da
Haqqın cəzasıdı, mükafat deyil.

Küskün bəndəsiyəm indi hisslərin,
Sinəmdə dərdimin sözardı qalıb.
Əzabım dünyadan heç nə istəmir,
Ruhum qapadığım hasarda qalıb.

*2006*

## ƏLVİDA

Keçə bilmədiyim a yaz sevdası,
Ömrümün, günümün bəyaz sevdası,
Dərin duyğuların dayaz sevdası,
Əlvida!

Sənə qovuşmağa əlim çatmadı,
Ucaltdım səsimi, naləm çatmadı.
Dərdini yazmağa qələm çatmadı,
Əlvida!

Ürəyim içində – yerin boş daha,
Durmuşam, qamətim qəmə tuş daha.
Sənə ad da tapdım «qara daş» daha.
Əlvida!

Məni xatırlama, mən yoxam artıq,
Nisgilim, əzabım, möhnətim artıb.
Qayıtdım bu yoldan, bir addım atıb,
Əlvida!

Dərdin gözlərimə çöküb, nə yaxşı!
Əlini üzümə çəkib, nə yaxşı!
Elə çiynimdədir yükün, nə yaxşı!
Əlvida!

Tale də…
Bir qara dəftərdi, yazıb,
Mənə müjdə kimi göndərdi, yazıb.
Bəs kimə oxuyum bu dərdi yazıb?!
Əlvida!

Yaşa, a qəmində boğulan ömür,
Ölüb, dönə-dönə doğulan ömür.
Sən, a boğazıma yığılan ömür,
Əlvida!
Əlvida!
Əlvida!

*2004*

## GEDİRƏM

Mən daha inama gözümü yumdum,
Sevgiyə gümana gözümü yumdum.
Bu saxta zamana gözümü yumdum,
Bir yalan yolunu tutub gedirəm.

Sınandım xəbisdən, xaindən belə,
Yaxşımın, pisimin sayından belə.
Mənə olan oldu, ta innən belə,
Zülmü, sitəmi udub gedirəm.

Görmüşdüm dünyanın tərs üzünü də,
Sillədən qızaran sərt üzünü də.
Məndən gizləmədi mərd üzünü də,
Ta üzü ağ olsun, itib gedirəm.

Tale demir kiməm, ad demir kiməm,
Bir ömür yumşaldım «daş-dəmir» kimi.
Ömrü yaşamıram mən ömür kimi,
Eləcə yanından ötüb gedirəm.

Bu da bir nağıldı; göstərdi, yetər,
Eşqimin yolunda əsgərdim, yetər!
Məni öldürməyə öz dərdim yetər,
Onsuz da dərdimə yetib gedirəm.

Ta o sızlamağın daşını atdım,
Sıxıb gözlərimin yaşını atdım.

Bu qəm yastığına başımı atdım,
Yuxumun gözündən öpüb gedirəm.

Uçurdum e… bir zaman qanadım vardı,
Yüksəldim, yüksəldim, - sənətim vardı.
Bəxtimdə evin tək cənnətim vardı, -
Qapısın üzümə örtüb gedirəm.

*2005*

## BELƏSƏN DƏ

Neyləyirsən, «düz» edirsən,
Məni səbirsiz edirsən,
Eh, hər sözü söz edirsən,
Sən də belə bəlasan da.

Oturum-durum, bilmirəm,
Sındırım, qırım, bilmirəm,
Başıma vurum, bilmirəm,
Hisslərimə tələsən də.

Gülsən, çiçəksən, ətirsən,
Heyif, bir qədər — çətinsən,
Məni öldürüb gedirsən,
Ərkəsöyün balasan da.

Neyləyirəm, partlaşıram,
Yumşalıram, sərtləşirəm.
Öz-özümlə dərdləşirəm, -
Ta neyləyək, beləsən də.

*2004*

## QISQANCLIQ

Həsrət məni yaxaladı, yaxın gəl,
Çalxaladı güman, şübhə, ar məni.
Kimə baxıb? –
Gözlərinə baxım, gəl,
Bu duyğudan, bu əzabdan dər məni.

Əllərindən öpüşümü yudunmu?
Daradınmı sığalımı saçından?
Yuxuların haçan çəkdi adımı? –
Görüşəndə, ya sözündən qaçanda?

Suallarım baş apardı deyəsən,
Mən də belə bir dəliyəm, bağışla.
Gözlərimi yaş apardı, deyəsən,
Deyən bir az gülməliyəm, bağışla.

Yox e… sənin gözlərində — yad baxış,
Ürəyində
gəzsəm, kimi taparam?
Sözlərindən mənə təzə ad baxır,
Kimdir axı məndə tufan qoparan?

Ay gözümün öpüşündə məst olan,
Səni e…
Allah sevgisi tək qazandım.

Məndən uzaq, sən Allah, az gəz, dolan,
Qoyma günüm ilə dönüb, uzansın.

Sən olmuşam duyğuların selində,
Sına məni, qoru məni, duy məni.
Ürəyinin bircə çınqı yerində
Bir hücrə tap, qapısında qoy məni.

*2004*

## SON GEDƏN ELƏ MƏN OLUM

Bir ahın, nalənin içindəyəm mən,
Bir dərdin, bəlanın içindəyəm mən.
Bir dünya yalanın içindəyəm mən,
Niyə oturmuşam – varıb da gedim.

Demə daşam elə, dəmirəm elə,
Yoğur, ya yoğurma, xəmirəm elə,
Hara qaçıramsa, səninəm elə,
Yolların qolunu qarıb da gedim.

Ömrünə kim gəlib, pərt qayıdıbdır,
Qəlbində bir ağır dərd qayıdıbdır.
Mənim qayıdışım sərt qayıdıbdır,
Gedən sıraları yarıb da gedim.

Daha siz tərəfdə işim qalmasın,
Həsrətdən qovrulum, bişim, qalmasın.
Birjə xatirəm də düşüb qalmasın,
Qapından izimi yolub da gedim.

Mən yenə biganə olum dünyaya,
Düşməsin bir daha yolum Dünyaya.
Söyüm, yamanlayım, gülüm dünyaya,
Dünyanı gözümdən salıb da gedim.

Bir də həsrətimə tən gəlməyəsən,
Əysin qürurumu qəm, gəlməyəsən,
Mən elə gözləyim, sən gəlməyəsən,
Gözüm yollarında qalıb da gedim.

Mənim tək yol üstdə durasan elə,
Yetəni dindirib yorasan elə,
Hardan keçdiyimi sorasan elə,
Səndən qisasımı alıb da gedim.

Tən ola bilmədik, neynək, gen olum,
Səninlə qalana yolverən olum.
Gedirəm,
son gedənin elə mən olum,
İsrafil surunu çalıb da gedim.

*2004*

## SƏNİ BU OYUNDA...

Sən mənim deyilsən, inandım daha,
Dərdim-dərin deyil, qəmin deyildir.
Sındı qolum daha, qanadım daha,
Daha bu göylər də mənim deyildir.

Daha qopammıram qəm yaxasından,
Daha qətrə-qətrə dərdə çökürəm.
Ömrümə qoyulan qan bahasından
Hissimə, duyğuma pərdə çəkirəm.

Yox, məni aldatmaz bir gülüş daha,
Fəryadım ahımdan ucalar mənim.
Üzümdən, gözümdən tökülür daha
Qəlbimə yüklənən acılar mənim.

Üzümə açılmır, bağlıdı qəlbin,
Qarışıb gecələr, gündüzlər artıq.
Sevməyir, neyləmək, haqlıdı qəlbin,
Yolumu gözləmir o gözlər artıq.

Bir ayrı dünyadan qopub gəlmişdim,
Gəlmişdim, ömrünü bəzəyəm bəlkə.
Bilmirəm, səndə nə tapıb gəlmişdim,
Dedim, sevənlərə bənzəyəm bəlkə.

Yanlışlıq, aldanış… Bu da bir oyun,
Daha girişmərəm, eh keçmiş ola!

Daha həqiqəti bir yana qoyub,
Nağıla uymağım gecikmiş olar.

Kimi aldatmısan,
kimi atmısan, -
Sənin öz işindir, nəyimə gərək?!
Bir onu bilirəm, nahar qatmısan, -
Səni bu oyunda uduzub ürək.

*2004*

## ÖMÜRDƏN PAY

Bu yara da yavaş-yavaş sağalar,
Bu görüş də "əlvidaya" çevrilər.
Bu hiss dönər bir maraqsız nağıla,
Ötüb keçən bir sevdaya çevrilər.

Aylar, illər qalaqlanar; sərtləşər,
Başqa hissə calaqlanar; sərtləşər.
Gah qayıdar, qılıqlanar, dərdləşər,
Gah yadlaşan bir ədaya çevrilər.

Özüm ollam, özül ollam mən yenə,
İnad ollam, dözüm ollam mən yenə,
Qayğıların gözü ollam mən yenə;
Əməllərim qan-qadaya çevrilər.

Yox, olmaram bu sevgiyə qul daha,
Qoy axtarsın ürəyimə yol daha…
Eh, desə ki, qollarımda öl daha,
Bu məhəbbət bir xətaya çevrilər.

Alar məni hardan-hara sədası,
Çalar məni söz-söhbəti, ədası.
Mənə gələn dərdi-səri, qadası
Haqdan gələn bir nidaya çevrilər.

Çiçəklənər ümidləri yenidən,
Yallı gedər sümükləri yenidən,

Duyğulanıb, körüklənib yenidən
Coşan selə, axar çaya çevrilər.

Salar məni dərdə-qəmə istəsə,
Sevinc – həmən, kədər – həmən, istəsə,
Ondan ötrü, Allah, yenə istəsə,
Ürək nədir?!
ömür paya çevrilər.

*2004*

## SEVGİ DƏ İŞIQDI, QARANLIĞI VAR

Kimə işləyirsən, hara qaçırsan?
Kimdir didən səni, dağıdan səni?
Daşlayıb axırsan vaxtdan, zamandan,
Nədir sıxan səni, ağrıdan səni?

Yaşın o yaş deyil, yaşından uzaq! –
Kövrəklik edərsən, dəlilik çıxar.
Min bir oyunu var, başından uzaq,
Dünya itkidən də gəliri çıxar.

Bu qədər vaxt keçib, zaman eşmisən,
Şirini, acısı qol açıb sənə.
Palçıq ayaqlayıb, saman eşmisən,
Zəhmət öz əlilə yol açıb sənə.

Dünənki deyilsən, dünya – yaşıdın,
Qarış yaşıdına, qovuş deyirəm.
Sən ki dirilik yox, dünya yaşadın,
İşinə-gücünə yovuş deyirəm.

Sevgi də işıqdı, qaranlığı var,
İşıqda, zülmətdə yaşat bu ömrü.
Şərab tək onun da haramlığı var,
Neynək, haramla vur başa bu ömrü.

*2005*

## GÖRSƏNƏ

Qurban sənə, aç üzümə qapını,
Al könlümü, qoyma gözüm qapana.
İndi bütün ömrüm sənə tapınıb,
Bütün ömrüm yolundadı, görsənə.

Daş-divaram, özün gör e… taxtayam,
Yoxdu məni bu dərd üstdə haqlayan.
İndi daha əsildən çox, saxtayam,
Ömrüm-günüm zülmdədi, görsənə.

Elə yaxdı kədər məni, qəm məni,
Verəcəkdi deyən əldən can məni.
Ürəyimi az yarala sən mənim,
Hər nə varsa, dilimdədi, görsənə.

Əzabların məngənəsi — dar yenə,
Öz əlimlə döyülməyim var yenə.
Sinəmdəki ocaq qalıb kor yenə,
Odu-közü külümdədi, görsənə.

Mən özümü yenməliyəm bu dərddə,
Pillə-pillə enməliyəm bu dərddən,
Alışmalı, yanmalıyam bu dərddə,
Çıxış yolum ölümdədi, görsənə.

*2004*

* * *

Uyuyaydım daş sinəndə,
Quruyaydı yaş sinəndə.
Baş qoyub da kaş sinəndə
Şirin yuxular görəydim.

Gərək səni atmayaydım,
Qəmi qəmə qatmayaydım.
Gecə-gündüz yatmayaydım,
Diri yuxular görəydim.

*2006*

# HƏSRƏT TORANLIĞINDA

Yollar — uzun-uzadı,
Küçələr bomboş,
Binalar bir böyrü üstə.
Daşlar
bir-birindən tutub dayanıb
divarlarda.
Göydən od ələnir,
Hər tərəf —
içindən qabaran
bir fırtına.
Vitrində —
bir budaq qladiolos
sənin istəyindən
düşüb qalıb.
Hər tərəf –
Həsrət toranlığında.

Ölüb gedəcəyim
bir gün var
biganəliyində.
Biganəliyin
ölüb gedəcəyim günün
qanını içə-içə
soyudur məni
özümdən,
özündən,
ömürdən…

*2004*

## NİYƏSİNİ ÖZÜN DE

Sənə şer oxuyanda
İlk sevginin
çaşqınlığı içində
dolaşıb qalan
xırdaca bir
qızcığaza dönürəm.
Niyəsini
özün de.

Şerlərim
bir-birinə qısqanır
Səni,
mən isə
bütövlükdə
şerlərimə.

Gündən-günə
artır sevənlərin
şerlərimin sayında.
Hər gün özümə
təzə-təzə rəqiblər
yaradıram
şerlərimlə.

Sənə vurğun,
Səndən gileyli
şerlərim

hər gün qaçır üstümə.
Hər gün min bir dillə
dindirirəm,
dinləyirəm onları.
Kövrəkdilər,
həzindilər,
ən başlıcası isə
ümidsiz bir
məhəbbətlə sevirlər…

*2004*

# SON MƏNZİLƏ KÖÇƏNDƏ

Sonu məyusluq olan sevgiyə nə deyəsən?!
Nə deyəsən axırı sevgi olan nifrətə?!
Bu sevginin, nifrətin birsə əgər yiyəsi,
Bir qəlbdə yaşayırmış
həm mələk, həm ifritə.

Sənə yaxın düşmədim qərib
düşüncələrdən,
Sənli ömür yaşadım sənsizliyin qəmində.
Sevgimin qanadında uçur,
uçurdum hər dəm,
Xəyallar adlayırdım,
sevdalıydım səninlə.

Hərdən dəli bir sual silkələyirdi məni –
Nədir, nədir bu sevgi? –
Qısqanclıqmı, qəzəbmi?
İçimdə sənə nifrət sillələyirdi məni,
Duyurdum – bu həyat yox,
işkəncədi, əzabdı.

Eləcə öz-özümü söyür, yamanlayırdım,
Əsiriydim sevgimin, nifrətimsə – özümə.
Belə yaşamaq olmaz – duyurdum,
anlayırdım,
Bu amansız sevgi də çımxırırdı üzümə.

Hara qaçıram-qaçım, hara köçürəm-köçüm,
Bilirəm ki, mənimlə, mənimləsən, məndəsən.
Mən ta yoxa çıxmışam,
mən özümçün bir heçəm,
Sənsə evdə, səfərdə – mənimlə hər yandasan.

Neynək, gəzdirim elə ürəyimin içində
Göydən yerəcən səni, yerdən göyəcən səni.
Təkcə o son mənzilə,
son mənzilə köçəndə,
Ürəyimdən çıxarıb evdə qoyacam səni.

*2006*

* * *

Dəyanətim sipər ola,
Aramızda çəpər ola.
Ürəyimdə təpər ola,
Səni unudam-unudam.

Ulduz-ulduz bürcüm çəkə,
Bu sitəmi gücüm çəkə,
Səndən sonra hücum çəkən
Qəmi unudam-unudam.

Bu ləzzətdən, daddan çıxam,
Sıçrayam, bu oddan çıxam.
Olub-keçən yaddan çıxa –
Yəni unudam-unudam.

*2005*

***

*«Aç ürəyini», dedim, «aç ki, bəlkə yüngülləşəsən». Və bu şerlər də beləcə yarandı.*

Barmağımı tutub
İncə-incə dişləyirdi.
Elə bilirdim,
məhəbbətimi oyadır.
Sən demə,
ağrılarımı
oyadırmış.

Yanağımı sığallayırdı
zərif-zərif –
əllərinin gücündən
min qat
zəif bir incəliklə.
Elə bilirdim
sevgimi oyadır.
Sən demə,
iztirablarımı
oyadırmış.

Duyğularım
yarpaq-yarpaq
açılırdı
çöhrəsinin nuruna,

üzünün
yaxınlıqda ikən
oxuya bilmədiyim
tanrı yazılarına.
İndi isə oxuyuram -
uzaqdan
lap uzaqdan:
Həsrətimdən
xəbər verirmiş.

Dodaqlarının
küncündəki təbəssümə
can atırdım
bütün ruhumla,
bütün istəyimlə.
Elə bilirdim,
həyat eşqimi
oyadır.
Sən demə,
sabahkı ölüm çağırışımı
oyadırmış.
Bağışlaya bilmirəm
oyanan sevgimi,
iztirabımı,
həsrətimi,
ölüm
çağırışmı.

Faciə deyil,
bilirəm.
Bir insan ömrü
nədir ki?!.

Hər yerdə
sən varsan,
hənirin var.
Hənirinə can atıram,
sənə can atıram.
Odur ki,
hər yerə
baş vururam.

*2005*

* * *

Bu ağrıya qan udduram gərək mən,
Bu ağrının əzabında inləyəm.
Axı sənə neyləmişdim, fələk, mən, –
Keçirmisən boğazımı ilgəyə.

Sevməmişdim,
mən acımdan tox oldum,
Oğru kimi öz qəlbimə soxuldum.
«Ona» döndüm, varlığımdan yox
oldum,
Döndüm elə arxasınca kölgəyə.

Nə görmüşdüm vüsalında, bilmirəm,
Hicranında fəryad edən bülbüləm.
Allah, belə vurulmamış gül-gülə,
Allah, belə can atmamış əl göyə.

Əlim göydə, dərgahına yolum yox,
Bu həsrətə qadağa var, ölüm yox.
Lal olmuşam, dərd açası dilim yox,
Necə dönüm bir daş üçün elçiyə?!

Ağlım elə hisslərimə saç yolur,
Əzablarım gecə-gündüz daş yolur.
Yolum üstə çıxmayaydı kaş yolu,
Bu yol varıb gedəcəkmiş heçliyə.

*2005*

***

Cəsarətim elə bircə dəfə
«sevirəm»
deməyimdə imiş.
Sonra cəsarətim məni
tərk etdi.
Sevgim qaldı
gedən qədəmlərinə
əli uzalı.

Dilsiz-ağızsız
bir sevgi
dil açdı
susan dilimdə,
danışan
baxışlarımda.
Daim səni düşünən,
səni axtaran
duyğularımda.

Ürəyimdən danışa bilmirəm –
o ancaq ağrıyanda
mənim olur,
Ağrımayanda
sevgimin.
Sevgim isə
mənim
övladımdır.
O da sənə vurğun,

sənin yolunda.
Qadağa qoymadın
sevgimə.
Bilirəm, sevilmək,
kiminsə əzizi,
istəklisi olmaq
gözəl şeydir.
Sevilməkdən
gözəl nə var dünyada?!
Sevilməyənlərə yazıq!..

Canım çıxsa belə,
bu ağrını
dişimdə gəzdirəcəyəm.
Sənli ürəyim
məni yaxın qoymur daha.
Arzusu – sən,
İstəyi – sən.
Ağrıları isə –
dişimdə.
Dişimlə
dırnağımla
açıram
sənə doğru
gələn yolu.
O isə
sənə yaxınlaşmaqdansa,
elə hey

səndən uzaqlaşır,
uzaqlışır.

Uzaqlar
sənə uzanan
qollarımdır.
Allah-Allah!
Nə uzun qolların
varmış!

*2005*

***

Qaçıb qurtara da
bilmirəm.
Getdiyim yolların
başlanğıcı
sənin ayağının
altındadır.
Götür ayağını,
Burax yolumu,
qoy
çıxım gedim.

Axırına çatacağım
bir məkan var.
Uzaq-uzaq
bir duman arxasından
mənə əl eləyir,
«gəl-gəl» deyir.
Mənsə –
ömrə adaxlı…

Qaldır kipriklərini,
məni
məndən gizləmə.
Bilirəm ki,
gözlərindəki
mənim
surətimdir.

Vallah,
çıxıb gedərəm –
lap dünyanın o başına,
ürək məndən
əl çəkmir,
ürəyimdə isə – sən.
Ah, axır ki,
bildim-
məndən
əl çəkməyən
sənmişsən…

*2005*

# KİMİNLƏSƏN

Mən necə quş olum, uçum yanına,
Mən necə bilim ki, sən kiminləsən?
Çəkir içərimdən hücum yanına,
Çıxır vücudumdan can, kiminləsən?

Qırım bu yolların damarın, gəlim,
Həsrətin üzünə qabarım, gəlim.
Ölsəm, öz çiynimdə aparım, gəlim –
Cənazəm önündə yan, kiminləsən?

Qoluna girəsi qola dönüm qoy,
Arxamca gələsi yola dönüm qoy,
Əlində bir ləçək gülə dönüm qoy,
Məni bir dəqiqə an, kiminləsən?

Ayrılıq önündə donub sən olum,
Güzgüyə baxarsam, dönüb sən olum.
Yox, e…
Kaş elə mən də sönüb sən olum,
Gəzim bu sevgidən gen, kiminləsən?

*2005*

## BİR DƏ YANILMASIN

Bütün omuşların, olacaqların
Üstündən bir qara xətt çəkəm gərək.
Sökəm körpüləri, duracaqları,
Bütün görüşlərə sədd çəkəm gərək.

Sərhəd qoyam dərdli gecə-gündüzə,
Ayları, illəri keçə bilməsin.
Qalsın gəlişləri elə o üzdə,
Qapımdan içəri keçə bilməsin.

Məni yağmalayan hissləri qovam,
Qovam yolum üstdən bəd əməlləri.
Ardımca şığıyan izləri qovam,
Məyusluq ovmasın daha əllərim.

İçərim – eləcə ələk-vələkdə,
Bayırım – bayırı haram bilməsin.
Dərdi-qəmi boğam elə bələkdə,
Bəxtim ağ gününü qara bilməsin.

Bir də yanılmasın, Allah eşqinə,
Ürək bir qıfıllı mücrüyə dönsün.
Meylini salmasın bir də heç kimə,
Özünə sığınsın, hücrəyə dönsün.

Sovuşub o bağlı haqq qapısından,
Həsrət qapısını çırpsın üzünə.

Keçib zamanların vaxt qapısından,
Düşsün bəxt izinə, qismət izinə.

Axır ki, bir kəsi arxa bilməsin,
Axır ki bir kəsə arxa durmasın.
Gələn gözəlliyə baxa bilməsin,
Gedən xoşbəxtliyə yaxa cırmasın.

Səadət diləyib, bəxt aramasın,
Atsın bu möhnəti çiynindən, atsın,
Eşqə, məhəbbətə vaxt aramasın,
Sevgi ibadəti dinindən atsın.

Quylansın bir dibsiz vaxt boşluğuna,
Bir pərtliyi olsun, bir özü olsun.
Örtülsün bir eşqin sərxoşluğuna,
Dünyanın ən qərib dirisi olsun.

Tənhalıq – ömrünə çırpılan qapı,
Nə bağlaya bilsin, nə aça bilsin.
Sönən həsrətindən bir çınqı tapıb,
Bir gün son ümid tək alışa bilsin.

Eh!..
Təzədən rəml atıb, fal açam gərək,
Bütün olmuşları tərsinə yozam.
Təzədən qələmə alışam gərək,
Oturub ömrümün ardını yazam.

*2005*

## SƏNDƏN KEÇƏN HƏYAT

Səni ağrı kimi duyuram
ürəyimdə.
Allahdan aşağı  - sən.
Səndən yuxarı
ağrındır.
Hara getsəm,
kimə üzüm gülsə,
gözümün içindən boylanır
bu ağrı
bir çınqı
həsrət olub.
Korun-korun yanır
bu ağrı.
Mən daha
ayırammıram
sevgi – nə
əzab nədir.
Ey insanlar,
deyin, deyin mənə,
sevgi – əzabdır?..

*2005*

* * *

Hər günüm – həsrət yuvası,
Dərdi əyirə bilmirəm.
Fələk məni şərə salıb,
Yoxsa xeyirə? – Bilmirəm.

Kim girib könlüm evinə,
Quylanıb ölüm evinə,
Qoy durum gəlim evinə,
Çıxım bu seyrə? – Bilmirəm.

Ölüm – şərbət; içəcəyəm,
Qıl körpüdən keçəcəyəm.
Ya əriyib köçəcəyəm
Bir misra şerə? – Bilmirəm.

*2005*

* * *

Qapını həsrətimin
üzünə qıfıllayıb da
çıxdım bu evdən.
Düşdüm
diyarbadiyar,
daraşdım
dünyanın canına
həsrətimdən qopub.
Sənə doğru
qaçırdım.
Səni axtardım
düz dünyada.
Məni şülək-şülək
parçaladı
bu yollar.
Dağıldım
ümid olub,
arzu olub,
inad olub
bu yollara.
Dağıldığım andan
yorğunluq olub,
məyusluq olub,
ağrı-acı olub,
yığıldım,
yığışdım
dünyanın yollarından.

Qayıtdım evimə,
qıfıllı qapı arxasında
qoyub getdiyim
həsrətimə.
Bir küncdəcə
oturmuşdu. –
Alnı dizlərinə
söykəli.
Əlləri ilə
ayaqlarını qucub da
sığınmışdı
bir küncə.

Yaxınlaşdım.
Ona qayıtdığımı
demək istədim.
Məni eşitmədi.
Bumbuz
soyuqluğunda
donub da qalmışdı.
Ölmüşdü,
nədi?!.

*2005*



# QARA – RƏNGLƏRİN AĞIDIR

***

Hər şey təzədən başlayır,
Hər şeyin pisi qayıdır.
Gedəndə
qızılı gedir,
Yerinə misi qayıdır.

Səbirlinin səbri gedir,
Qəbristanda qəbri gedir.
Abırlının abrı gedir,
Sırtığın üzü qayıdır.

Ürəyim qəmə tərəfdir,
Ömrümsə şama tərəfdir.
Təkcə dərd mənə tərəfdir,
Biri gedir, yüzü qayıdır.

*2003*

***

Hər gün
ölüm ayağıdır,
Ömür - ölümün oyağıdır.
Qara
rənglərin ağıdır,
İnanmırsan, kəfənə bax.

Haqsızlığın haqq tərəfın,
Bəxtsizliyin baxt tərəfin,
İtkinin Allah tərəfin
Görmək üçün
tapana bax.

Duran öküz vaxtı bilib,
Neyçün durub, ağlı bilir.
Haqsız bilib, haqlı bilib, -
Bilmək üçün
yatana bax.

*2003*

## HAQQIM QARABAĞ

A yurdum, a yuvam, haqqım Qarabağ,
A köçgün, didərgin, qaçqın Qarabağ.
Bəxtimdə dərd adlı daşqın Qarabağ,
Bitsin əsir ömrü sürməyin daha.

Daşı ətəyindən töksün inadlar,
Gözündən pərdəni söksün inadlar.
Daha cilovunu çəksin inadlar,
Mən də az yanılıb, büdrəyim daha,
Bitsin əsir ömrü sürməyin daha.

Ağrıdan, əzabdan yordum özümü,
Sındırdım özümü, qırdım özümü.
Mən çox arsızlığa vurdum özümü,
İndi «qisas» deyib kükrəyim daha,
Bitsin əsir ömrü sürməyin daha.

Elə için-için xiffətim – oyaq,
Səbrim yumruqlanıb, hiddətim – oyaq.
Xainə, düşmənə nifrətim – oyaq,
Ömrü qələbəyə kökləyim daha,
Bitsin əsir ömrü sürməyin daha.

Dırnağım, dişimlə qaytarım səni,
Sözümlə, işimlə qaytarım səni.
Ulu keçmişimlə qaytarım səni,
Sabahın üstündə titrəyim daha,
Bitsin əsir ömrü sürməyin daha.

A yurdum, a yuvam, haqqım Qarabağ,
A köçgün, didərgin, qaçqın Qarabağ.
Bəxtimdə dərd adlı daşqın Qarabağ,
Bitsin əsir ömrü sürməyin daha.

*2005*

# TANRIM MƏNƏ ƏZAB VERSİN DEYƏRDİM

Bütün dünya indi məni düşünür,
Bütün dünya indi məndən danışır.
Sevincimə qıcayıbmı dişini?
Kədərimlə bəlkə durub yanaşı?

İçərimdə özümlə mən baş-başa,
Kimə nə borc — sevincliyəm,
qəmliyəm?!
Kimə nə borc gündən-günə daşlaşıb,
Çevrilirəm qurbanlığa, əmliyə?

Kim qarğıyıb? — Duyğularım korşalıb,
Aman Allah, biganəyəm sənə də.
Başım, beynim, qəlbim elə boşalıb,
Ağıl hisslə düşmən olub yenə də.

Qələm ələ, əl qələmə yadlaşıb,
Sözə doğru bircə addım atmıram.
Yaratmağın əzabına qatlaşıb,
Yaşamağın sevincini dadmıram.

Qısırlaşıb fikirlərim, hisslərim,
Nə dolum var, nə yağışım, nə qarım,
Nə diriyəm bir töhmətdən gizlənim,
Nə ölüyəm, öz ömrümü aparım.

Nə ölüyəm  tabutuma girim mən,
Canyananlar bugünümə ağlasın.
Nə diriyəm qalxıb durum yerimdən,
Qaçım, qaçım…
Qolum, qıçım ağrısın.

Ağrılarım oyur-oyur oynasın
Oynağımda, kürəyimdə, qolumda.
Ürəyimdə qəzəb daşıb qaynasın,
Əzab çəkim namusumun yolunda.
Bu əzabdan qəzəbimə don biçim,
Haçankısa günahımı yuyum mən.
Qeyrətimə, qüdrətimə and içib,
İnadımı yol üstündə qoyum mən.

Elə qaçım bu yolların köçündə,
Dərdim məni dünya boyu paylasın.
Qalbimdəki ağrıların içindən
İntiqamım «Şuşa» deyib haylasın.

Ümidlərim qol götürüb oynasın,
Arzularım, əməllərim göyərsin.
Tanrım məni intizarda qoymasın,
Tanrım mənə əzab versin, deyərdim.

Bir əzab ki, sonucunda sevinc var,
Bir əzab ki, gələcəyə səsləyir.

Qan tökəsi qılıncında sevinc var, -
Düşmən üstdə qələbəyə səsləyir.

Düşüncələr-ayağından asılı,
Qarşımdakı ağ varaqdı hələ ki.
Gör alnıma neçə zəfər yazılıb, -
Ən böyüyü Qarabağdı hələ ki…

*2004*

## DAHA NƏ GÖZLƏMƏK...

Daha nə gözləmək, daha nə ummaq?!
Nə qalıb mənimlə söz arasında?
Əcəl də yerini gizlətmir daha,
Durmuşam qaş ilə göz arasında.

Məndən istək uman, sevgi uman yox,
Əcəlsiz macala daha güman yox.
Haqda, ədalətdə indi iman yox,
Qalmışam astarla üz arasında.

Nə tutub durmuşam matah dünyanı?
Ölüm, ver əlini, ataq dünyanı.
Bəlkə biz də qırıb-çataq dünyanı,
Boylanaq od ilə köz arasından.

Fürsətə can atır yerindən duran,
Şərindən yıxılıb, xeyrindən duran.
Şeytana diz çöküb, pirindən duran
Yortur tamahıyla öz arasında.

Ağlına beş qəpik verən yox daha,
Meyvəsi yetişib, dərən yox daha.
Gərək qılıqlayam, çarəm yox daha
Zamanı qış ilə yaz arasında.

Bir qəmə sığınıb, sevincə güləm,
Boynumu vurası qılınca güləm.
Vallahi, yıxılıb ölüncə güləm,
Güləm, lap o beş arşın bez arasında.

*2005*

## ÇADIR ŞƏHƏRCİK

Düz çadır, çöl çadır, biyaban çadır,
Çadır yuxusunda yatır şəhərcik.
Yox ayılan çadır, oyanan çadır,
Ada, ünvana bax,
«Çadır şəhərcik».

Ömrünü mıxlayıb, torpağa yatır,
Şəhər gölməçədə qurbağa yatır.
Ləçəyi hıçqırır, papağı yatır,
Ağrıda, acıda batır şəhərcik.

İstidə, soyuqda cəzadır çadır,
Yağışda, yağmurda qəzadır çadır.
Təzə ev yerinə - təzə bir çadır;
Təzə bir addım da atır şəhərcik.

Əyilib, dikəlmir Qarabağ beli,
Şikəstə çağırır salamat əli.
Sürünüb ardınca qəbristan gəlib,
Səbrdə, dözümdə - qatır şəhərcik.

Palçıq küçələrlə düşüb dərd gəlir,
Çadır divarların qışı sərt gəlir.
Bazar vədlərin işi tərs gəlir,
Ümid alıb, ümid satır şəhərcik.

O qız da tərs kimi boy atır elə,
Bilmirmi bəy evi əsirdi hələ?!
Ana qucağında qundaqlı gələn
Bu qızla yaşıddır həsir şəhərcik.

Düz çadır, çöl çadır, biyaban çadır,
Çadır yuxusunda yatır şəhərcik.
Yox ayılan çadır, oyanan çadır,
Ada, ünvana bax, «Çadır şəhərcik».

*2003*

## AY ARXALI ADAMLAR

Böyüklükdə kiçiyiniz yox sizin,
Qazancdasız, itiyiniz yox sizin.
Yolunuzda kötüyünüz yox sizin,
Bəxtəvərsiz, ay arxalı adamlar.

Çalırsınız, çapırsınız, görən yox,
Nəfsinizə çəpər-filan hörən yox.
Haqq naminə sizi yuyub-sərən yox,
Mötəbərsiz, ay arxalı adamlar.

Yollarınız – göz üstündə əl olub,
Unutduzmu, sizə dayaq el olub?
Ötmək olmur yanınızdan yel olub,
Birtəhərsiz, ay arxalı adamlar.

Pay-pürüşlü ömür sizin, yol sizin,
«Gəlhagəl»də dərya sizin, sel-sizin.
Keyfinizin quşu qonan yer sizin,
Yerbəyersiz, ay arxalı adamlar.

Səxavətdə yumruqsunuz, bərksiniz,
İnsan olub, insanlığa səddsiniz.
Sərhəd bilmir aşıb-daşan həddiniz,
Səfərbərsiz, ay arxalı adamlar.

Yolunuzda kötüyünüz yox sizin,
Bəxtəvərsiz, ay arxalı adamlar.

*2005*

# RUHUM QARANQUŞ YUVASINA QAYIDACAQ

*«Qaranlıq»*

Mən yolun içindəydim,
Ayağımla
Özümə yol cızırdım.
Sonra
yol ayağıma dolaşdı.
Oturdum yolu açmağa
ayağımdan.
Ayağımdan yolu açdım,
Atdım kəndin ortasına.
Sonra
gördüm ki,
yol evimizin qapısına
dirənib.

Dirənib də
Açmaq istəyir qapını.
Nə istəyir
bu yol?
Mənim addımlarımımı?!

Bu da
addımlarım!
Sənin əngini əzərəm, yol!
Hara aparırsan
Məni?

*«İşıq»*

Çatıb da
yolu ayağımdan
çıxardım.
Ayaqqabı deyildi ki,
çıxmaya.
Ayaqqabı darısqallıqdı
yuxuda.
Yol isə aydınlıqdı,
uğurdu.
Ancaq – evə gedəndə.
Ev isə
YOX İDİ.

Mən yolu
qonşuya daşıdım,
yataqxanaya daşıdım,
Törə xalagilə,
Solmazgilə daşıdım.
Neyləyəydim –
ayaqlarımın
evi yox idi.

Sonra oxudum,
işlədim.
O qədər ki,
ayaqlarım yolu yordu.
Yol daha
ayaqlarımın ardınca
gəlmədi.
Ayaqlarım gedirdi

onun ardınca –
işə,
qonşuya,
yataqxanaya,
Törə xalagilə,
Solmazgilə;
Ev yox idi.
Sonra ayaqlarım da
yoruldu.
Ev isə yox idi.
Elə indi də
yoxdu ev.

### *«İllüziya»*

Arifin ümidində
dörd bina tikilir.
Birində
İkiotaqlı mənzilim
var.
Arifin ümidində
Tikilən evin eyvanında
qaranquş yuva salıb.
Uçurmuram
o yuvanı.
Mən öləndə
ruhum
o qaranquş yuvasına
qayıdacaq.

*2003*

***

Bu çinar elə ağlayır,
Gözünün yaşı çağlayır.
Kimin yasını saxlayır –
Məndən başqa ölәni yox.

Köksündə – balta yarası,
Axır gözünün qarası.
Yoxmu bu dərdin çarəsi?
Bəs niyə dərd bölәni yox?!

Baş daşıdı məndən ötrü,
Özü boynuna götürüb.
Kimi bastırıb oturub? –
Bir anlayıb bilәni yox.

*2004*

## YÜKLƏNİB GEDİRƏM ÖMRÜ DAŞ KİMİ

Yenə it günündən boy verir ömür,
İllər yaşım üstə gəlmir yaş kimi.
Vaxt mənə çatanda ölmür ki, ölmür,
Yüklənib gedirəm ömrü daş kimi.

Bir ala-yarımçıq hissin əlində
Elə öz-özümü darayan mənəm.
Çıxır xəta kimi hirsim əlimdən,
Qayıdır fəryadı, harayı mənə.

Çarəm aciz-aciz gözünü döyür,
Başımda – Cəngisi ötən illərin.
Zaman içimdəki dözümü döyür,
Döyür qapısını itən illərin.

Sorur sərhəddini içinə Vətən,
Qısır nəfəsini qeyrətim, susur.
Elə hey kiçilir-kiçilir Vətən,
Elə hey dilində «Heyratı» susur.

«Heyratı» qanadlı zəfərlər elə
Ötən əsrlərin ardından baxır.
Kəsir yollarını çəpərlər elə,
Sərhədlər gözünün altından baxır.

Tənəsi qəddini bükür, ağlayır,
Yağı tapdağında qalan torpağın.
Namusu diz üstə çökür, ağlayır
Sərvəti, sevgisi talan torpağın.

Mənmiyəm yağıdan mərhəmət uman?!
İntiqam, ağalar, dilə tutulmaz.
Yağıya varmağa haqqım – bir ümman,
Söz udula bilər, ümman udulmaz.

Daha kim oğlu kim çərmənib gəlir?
Kimin qeyrətinə yamağam yenə?
Bəlkə bir anası ərməni gəlir,
Gəlir yala yenə, yalağa yenə.

Bəlkə bağlayasız söz torbasını,
Döyüş Cəngisini çalaq özümüz.
Qoy hər kəs hortdatsın öz şorbasını,
Bizsə yurdumuzu alaq özümüz.

Elə it günündən boylanır ömür,
İllər yaşım üstə gəlmir yaş kimi.
Neynim, xəcalətdən ölmür ki, ölmür –
Yüklənib gedirəm ömrü daş kimi.

*2005*

## HAMIYA QAYNAMAZ QANI DÜNYANIN

Heç nəyin fikrini, dərdini çəkmə,
Gözünə tutulan pərdəni çəkmə,
Əvvəli çəkmisən, ardını çəkmə,
Bil ki, tükənməzdi qəmi dünyanın.

Hünərin çatırsa, gözünü yum, keç,
Keçdiyin günləri bir daha dön, keç,
Dəli sevdalardan uzaq ol, gen keç,
Başına vurmasın dəmi dünyanın.

Açılsın ömründən həsrət qurşağı,
Bəsdi dərd qurşadın, nisgil qurşadın.
Bəlkə yağdıracaq uğur gürşadı, -
Başının üstdədir çəni dünyanın.

Bir sınıq ürəyə sığalı yoxsa,
Hamıya düşəsi qoğalı yoxsa,
Səninçin çərxinin ovxarı yoxsa,
Ona ki çəkilir dəni dünyanın.

Açarsan əlini, səxavət bilər,
Bəxtə küsənməyi həqarət bilər,
Bir ömrü bir ömrə nəqarət bilər,
Hamıya qaynamaz ki, qanı dünyanın.

Günündən, ayından al sorağını,
Gətirsin ömrünə qar sorağını.
Ara kainatda Yer sorağını,
İçində, çölündə tanı dünyanı.

Əyil, daşını öp, torpağını öp,
Otunu, gülünü, yarpağını öp.
Gilas çağını öp, nar çağını öp,
Beşiyi, məzarı fani dünyanın.

*2006*

## HƏR GECƏ SAAT ÜÇDƏ

Hər gecə saat üçdə
Yuxum çəkilir göyə.
Gecənin gözlərində
Düşür şəkilim göyə.

Açılır fikirlərin
Qapıları taybatay,
Adlayıram Arazı,
Gəzirəm o tay-bu tay.

Şuşa zirvəmdə durub,
Laçını şən görürəm.
Ruhumu Kəlbəcərdən
Vurub keçən görürəm.

Görürəm Göyçə - mənim,
Borçalı, Dərbənd – mənim.
Yağıdan xilas olmuş
Neçə şəhər, kənd - mənim.

Qayıdıb öz ilkinə
«Böyük Azərbaycan»ım –
Əcdadımın məskəni,
Evi Azərbaycanım.

Bu xəyallar içində,
Şer də yazıram mən.

Həqiqətə xəyaldan
Səngər də qazıram mən.

Bu səngərdə mən hücum
Dəmini gözləyirəm,
Ali Baş Komandanın
Əmrini gözləyirəm.

*2006*

## SAYIMMI

Eh, sizin də günləriniz var idi,
Himləriniz, cimləriniz var idi.
Gizli-aşkar kimləriniz var idi -
İndi burda bircə-bircə sayımmı?

Yola-yola saçlarını gedənlər,
Toxluğuyla aclarını güdənlər,
Bədəməllər, tamahkirlər, gödənlər
Hər gecə ki qara cücə sayılmır.

Kim deyir ki, betər gəlir il-ildən? –
Yorğun-arğın qatar gəlir il-ildən.
Ömür var ki, yatır gəlir il-ildən,
Səs-sədası bircə küncə yayılmır.

Nəkarəyik biz də, atam-qardaşım, –
Çıqqırımız çıxdı haçan, qardaşım?!
Vədə uyub, bəxti yatan qardaşım
Elə yatıb, qalıb dincə, ayılmır.

Erməninin burnu budu, Kürdədi,
Naxçıvanı göz altında girlədir.
Nə sirrdisə, tora düşür birbəbir
Bu bilməcə, xoruz-beçə cayıllar.

O tayı da, bu tayı da – bizimlə,
Bu okean daydayıdı bizimlə.
Əməl qalır, söz qayıdır bizimlə,
Bu get-gəli almır vecə dayılar.

Eh, sizin də günləriniz var idi,
Himləriniz, cimləriniz var idi.
Gizli-aşkar kimləriniz var idi -
İndi burda bircə-bircə sayımmı?

*2006*

## ALLAH, BU NƏ PLANET…

Nəfəsi kəsildi bu ömrün daha,
Dirilik yolunda çilingağacdı.
Uzaqdan-uzağa görünür daha
Qismətin ucuzu, bəxtin bahası.

Hər gələn sorağa açılmır qapım,
Hər gedən səfərə çıxa bilmirəm.
Günlər bir-birini əlimdən qapır,
Bir günün əlini sıxa bilmirəm.

Uzaqdan-uzaqdı doğması, yadı,
Hərə bir kölgənin dalınca çapır.
Bu necə planet, necə dünyadı –
Allah, toxları da qılınca çapır.

Yaxası cırılıb bu darthadartda,
Yox bu məhkəmənin vaxtı-bivaxtı.
Oğrunun, quldurun hörməti – qat-qat,
Haqsızın, xırsızın üzdədi baxtı.

Ağrısı, acısı gözündə – nifrət,
Qaçqına, köçkünə dardı yollar da.
Qovana şöhrətdi, qaçana – ibrət,
Tapdanan namusdu, ardı yollar da.

Allah, bu nə planet, bu nə dünyadı,
Düşməni bilinmir, dostu bilinmir.
Sıxıb ağuşuna doğmanı, yadı,
Qərarı bilinmir, qəsdi bilinmir.

Başına od yağa bəd əməllərin,
Kor tutduğu yerdən əlini üzmür.
Pisliyin döşündən süd əmənlərin,
Vurub birdəfəlik belini üzmür.

*2006*

## TANIMAQ OLMAYIR

Pisliklər yapışıb yaxandan sənin,
Yaxşılıq əlini üzüb də gedir.
Tanımaq olmayır baxanda səni,
«Can»a «Can» umanlar küsüb də gedir.

Elə vurulmusan özünə, elə,
Kimsə görünməyir gözünə, elə.
Görəndə üzülə-üzülə elə
Adamın abırı, üzü də gedir.

Soyulub çıxırsan adam cildindən,
Anlamaq olmayır səni min dildə.
Tövratdan, Zəburdan, bəlkə İncildən
Aldığın dərslərin izi də gedir.

Daha nə yaxının, nə dostun qalır,
Şəninə qoşulan bir dastan qalır.
Nə bilək, şagirdin, ya ustan qalır, -
Birinin izi yox, yüzü də gedir.

Gözünə namərdi, mərdi görünmür,
Yaxşı-pis arası pərdə görünmür.
Baxırsan – səninçin fərqi görünmür,
Canavar ardınca quzu da gedir.

Şübhələr yapışıb yaxandan sənin,
İnamlar əlini üzüb də gedir.
Tanımaq olmayır yaxından səni,
Umanlar, gümanlar küsüb də gedir.

*2006*

***

Ömrümdə möhnət yükü,
Gözümdə yaşdı dünya.
Dərdimə çiyin vermir,
Ürəyi daşdı dünya.

Qəmimlə boyhaboydu,
Özünü o yerə qoymur.
Çölümdə bəlkə toydu,
İçimdə yasdı dünya.

Düzüb sərgiyə bəxti –
Bu tacı, bu da taxtı.
Haçan boylanıb baxdım,
Başımdan basdı dünya.

*2003*

## YALANMIŞ

Mənim daha bir işim yox Dünyada,
Çıxım gedim, arzularım talanmış.
Duyğularım bu gedişi duymada,
Bu dünyayla haqq-sayım yalanmış.

Yenə elə bazar-həmən, beh-həmən,
Həminkidir kədər elə, qəm elə.
Yenə mənəm əvvəlki tək təklənən, -
Öz-özümün təkrarıyam mən elə.

Az qalmışdı səadətə inanım,
Fələk vurdu, bu inamdan yıxıldım.
Bəxt adında bir qələtə inamım
Axırı ki, dözəmmədi, yox oldu.

Dördgöz idi ümidlərim nədənsə,
Tora düşən bəxtə-günə yanmadım.
Özüm oldum öz əlimdən gedən də,
Buydu elə fərasətim, anlağım.

Öz-özmü haqlayıram axır ki,
Yavaş-yavaş ağlım gəlir başıma.
Abır-həya saxlayıram, axır ki,
Nə gəlirsə, oğrun gəlir başıma.

İndi daha yayın, qışın fərqi nə?
Daha mənə isti-soyuq – yox kimi.

Sayılmışam hər saata, hər günə,
Qalan ömrün yası-toyu – yox kimi.

Mənim daha bir işim yox Dünyada,
Çıxım gedim, arzularım talanmış.
Duyğularım bu gedişi duymada,
Bu dünyayla haqq-sayım yalanmış.

*2006*

## AYILA BİLƏRƏM DƏRD ÖLÜMÜNDƏN

Hər səhər yuxudan qalxıram halsız,
Günəşin üzündə pərdə görürəm.
İnkiri-minkiri sorğu-sualsız
Durub gözlədiyi yerdə görürəm.

Aldığı zərbədən ömür qan qusur,
Rahatlıq bir sıxma duz qəhətində.
Məni bir şərə-şur qovğadan qusur
Fikir qəhəti də, söz qəhəti də.

Gözümü silirəm, gözəllik hanı? –
Məni gülən görə, rənglər ağlayır.
Odur, bir ahıllıq – dişində canı,
Gedir, yerişində yolu ağrıyır.

Xəyanət darına çəkilib dünya,
Dostlar, tanışlar da… Üzü ağ olsun.
Sən, ey zirvələrdən tökülü dünya,
İşin ucaları alçaltmaq olsun.

Sənin puçluğunda, yalanlığında
Beş günlük, on günlük ümid payım var.
Ömrü başa vurdum qaranlığında,
Bağışla, boynumda haqq-sayın var.

Qəlbimə girmişdin bir yuxu yolla,
Səni gözlərimdən sıxıram daha.
Əlimdən nə gəlir, mən də bu yolla
Boynumda borcundan çıxıram daha.

Yığıb qablaşdırdım nə ki dərdin var,
Çiyinlər qaldırmaz bu yüklə məni.
Gedirəm, səninlə amma şərtim var,
Məzara yüz yerdən hörüklə məni.

Ayıla bilərəm dərd ölümündən,
Boylanmaq istərəm sonrakı sənə.
Təzədən ölərəm hər ölümünlə,
Ölümüm yas tutar sondakı sənə.

Aparıb gedirəm dərdini, dünya,
Hər tinbaşı pusur itki bu ömrü.
Vaxtdır, endir daha pərdəni, dünya,
Daha tamaşası bitdi bu ömrün.

*2006*

## TÜKƏNDİ

*Mən ölümə inanmıram*

Üzlər – cırmaq-cırmaq, qan gözləməyin,
Gəzin bu maraqdan gen, gözləməyin.
Sovrulmuş sünbüldən dən gözləməyin,
Daha bu ruzinin dəni tükəndi.

Zəmidir, biçilir – ömür deməyin,
Sozalır bu çıraq, sönür deməyin.
Çıxa can ağızdan, ölür deməyin,
Deyin ki, bir dünya qəmi tükəndi.

Bir saydan, sıradan hoppanıb uçdu,
Küçədən, bacadan toplanıb uçdu,
Uçdu, bir itiyin tapanı, uçdu,
Ölmədi, itmədi, canı tükəndi.

Kiməsə haqq idi, kiməsə nahaqq,
Bir ömür sapsa da, qırıldı daha.
Ona can bahaydı, ömür də baha,
Şam idi, eləcə yanıb tükəndi.

Bu nöqtə bu ömrə düşdü sirr kimi,
Verdi son nəfəsi, çökdü Yer kimi,
Vaxt öz kəməndinə saldı gör kimi,
Gör kimdə sonuncu anı tükəndi.

Bir dünya duyğuydu, qəm aldı getdi,
İstəkdən, arzudan dəm aldı getdi.
Tanrı həm vermişdi, həm aldı getdi,
Ruhdu, Bu Dünyalıq donu tükəndi.

*2006*

## QAÇQIN HARAYI

*Şuşanın işğalından 11 il keçdi*

Mənim haqqımı ver, haqqımı, dünya!
Əlimdən aldığın haqqımı qaytar.
Yurdumu, tacımı, taxtımı qaytar.

Çöldə, biyabanda vaxt əridirəm,
Gözüm, qulağım da – «sabah-sabahda».
İanə qismətdə baxt əridirəm,
Dilənçi olmuşam bir gör nə vaxtdan!

Nə vaxtdan "yardıma" susayıb dilim!
Huşumun əkini-biçini - boşda.
Yanıma düşməkdən duzlayıb əlim,
Duz yeyir qolumu, qıçımı boşda.

Yardım növbəsində gözüm yol çəkir,
Tikməyi-qurmağı yadırğamışam.
Özümdən - nəslimə; izim yol çəkir,
Dil açan balam da - çadır tanışım.

Nə deyim-danışım körpəmlə axı? –
Oğlumun gözündə ucalım necə?
Dilim varmır axı, tərpənmir axı,
Deyim yağmalandı Xocalı necə.

Deyim - Şuşa, Laçın necə satıldı,
Ömrümüz yas deyil, toydu, düyündü.
Deyim yardım deyil, mükafatımdı
Minnətlə paylanan un da, düyü də.

Deyim mehribandı çadır qolları, -
Yayının, qışının bəxtəvəriyik.
Qaçqın təpiyində qançır yolların
Qıcanmış dişinin bəxtəvəriyik...

Oğlumun boyuna boy verməyim yox,
Elə çökmüşəm ki, dizim göynəyir.
Meydan təbillərə hay verməyim yox,
Susuram, dişimdə - sözün göynəyi.

Mənim haqqımı ver, haqqımı, dünya!
Kəlbəcər, Qubadlı, Laçından belə,
Füzuli, Zəngilan, Ağdamdan belə,
Cəbrayıl, Xocalı, Zəngilan kimi
"Qarabağ" ünvanlı odamı qaytar!
Şuşanı, Şuşanı, Şuşanı qaytar!

*2003*

# QISILIB İÇİNƏ DÜNYANIN BOYU

Sığınıb durursan suallarına,
Divar cavabların üzü boz gəlir.
Hər gələn adamla dünyaya deyən
Ya kərkədan gəlir, ya donuz gəlir.

"Niyəsi", "necəsi", "haçanı" - yoxda.
Göz-gözdən kölgəli, üz-üzdən dönük.
Bu sirr kələfinin açanı yoxdu,
Hərə öz içində; iblisdən dönüb.

Qırğın əməllərin sərt üzü - qara
Zülmə, dəliliyə köynəklər artır.
Gəlir qaba-qaba dərd üzüqara,
Qaçqın ayaqlarda göynəklər artır.

Yaxası cırılır amanın, ahın,
Qarabağda batan İraqdan çıxır.
"Yaxşı" azalanda "yamanı" artır,
Dünya cinayətlə sınaqdan çıxır.

Alında döyülən qara günlərin
Qara şahzadəsi - boyundan uca.
Qırıb tarazlığın dabanlarını,
Dikəlir tanrının göyündən uca.

Bugündən sabaha - ümidlər yoluq,
Biri it günündə, o biri şahdı.
Biri sağlığında - qəbirsiz ölü,
Biri ölübsə də, qəbiri sağdı.

Qətllər, qarətlər, işğallar - oyun,
"Niyələr", "neyçünlər" cavabsız qalır.
Qısılıb içinə dünyanın boyu, -
Qatili, canisi cəzasız qalır.

*2003*

* * *

O günləri görüb gəldik,
Bir yumruğa dönüb gəldik.
Alışmışdıq, sönüb gəldik,
Bizə nə oldu, bilmirəm.

Kim yamadı buzu bizə, -
Yağı etdi bizi bizə.
Hardan gəldi yazı bizə, -
Qəza nə oldu, bilmirəm.

Bir kələyin oyun
uyduq,
Qıldan nazik boyunuyduq,
Biz çoxdanın qoyunuyduq,
Təzə nə oldu, bilmirəm.

*2006*

## QUŞ QRİPİ

Başım
yaman qarışıb;
İndicə
itib-batacam
iş-gücün içində
əllərim qarışıq.
Asılıb
qulaqlarım
xəbərlərdən.
Hər xəbərdə
bir ünvan sönür,
hər xəbər –
bir ömrün
nöqtəsi;
Quş qripi
dünyanı
alıb başına;
kisələrdə
quş qripi
daşınır.
Diri quşların
günahsız
fəryadı çığırır

kisələrin içindən,
alovlanan
çuxurlardan,
bir də
özünü quşlardan
qoruyan
adamların
qorxusundan.

*2006*

* * *

Toyuqların bətnində öldü
Novruz bayramının
al-əlvan rəngləri.
Xınalı kəklik
havası başında
ləngər vura-vura
özünü zorla çatdırdı
onu ağlayan
daşın dibinə.
Qu quşlarının
uzun boğazları
kürəyinə düşdü.
Su üzərində
fiqurlu rəqslər
imkanı
dənizin ağır ləngərində
daşa dönüb də
çökdü dərinliklərə.
«Adamları quşlardan
qoruyun» nidası
bayraq kimi
dalğalandı
dünyanın başı üzərində.
Həyat davam edir –
quşların axırına doğru.

*2006*

## AD GÜNÜMÜZ

Hər cür sayıqlama
sayıqlığımızdan
xəbərsiz doğulur.
Sayıqlamalardan
ayıldığımız gün
sayıqlığımızı
itiririk.
Bizi barmaqla
göstərib
gülürlər,
BARMƏK-lə
tanıdıb
gözümüzü
pərdələyirlər.
AZƏRQAZLA
hədələyirlər.
Nazla-buzla
itələyirlər
özümüzdən uzağa.
Uzaqda durub da
qaranlıqda boylanan
donuq sifətimizdə
özümüzə
bənzəyiş arayırıq.
Aradığımızı
tapdığımız gün
bizim ad günümüzdür, -
Bilin
i n s a n l a r…

*2006*

* * *

Üzünə zəfəran
çəkilmişdi
qocaman palıdın.
Hamı
qorxusunu udmuşdu:
Ölümün
kölgəsi də gözəldir.

*2006*

## YENƏ «BU DÜNYA»

Heç kəsin heç kəsə borcu yox daha,
Fitrəsi, zəkatı, orucu yox daha.
Hamı dağıdandı, qurucu yox daha,
Kimin fitvasına getdi bu dünya?

Daha yıxılana dayaq tapılmaz,
Durarsan, qaçmağa ayaq tapılmaz.
Belə «yatmışlara» oyaq tapılmaz,
Əcəb gözümüzü örtdü bu dünya.

Əcəb ağlımıza keçə yamadı,
Meyvəyə behləşdik, cecə yamadı.
Vallahi, bilmədik, necə yamadı,
Necə huşumuzdan ötdü bu dünya.

Harına, hərisə qol açan kimdi?
Fitnəyə, fəsada yol açan kimdi?
Yığıb qaçanlara fal açan kimdi?
Kimin gözlərindən öpdü bu dünya?

Nağıldan çıxmışdıq, nağıla uyduq,
Alqışa, çəpiyə «sağ ol»a uyduq.
Dadi-bidad, hansı ağıla uyduq –
Bizi gözüqıpıq etdi bu dünya?!

Heç kəsin heç kəsə borcu yox daha,
Fitrəsi, zəkatı, orucu yox daha.
Hamı dağıdandı, qurucu yox daha,
Kimin fitvasına getdi bu dünya?

*2004*

## SİZİ ALDADIRLAR

Sönüb oturmuşam, -
içimdə bir
şam qaranlığı.
Ətrafım zil işıq,
həyatım –
axşam qaranlığı.
Dörd tərəfdən
nəğmələr yağır
qulaqlarıma,
beynim səslərə
ütülü.
Başım üstdə –
Ay həsrəti.
Günəş
vurğun istisiylə
gözlərimə
örtülür.
Düz dünya
nəmişlik qoxuyur,
hara dönürsən,
sirr,
sirr,
sirr…
İnsanlar
hara tələsir?
Ömürlər

nəyə tələsir?
Nəfəslər
qamışlıq qoxuyur.
İndicə
bir sirr
bağıracam -
Ehey,
Sizi aldadırlar!
Qulağınızın
dibi –
zurna çığırtısı:
Ehey,
sizi aldadırlar!
Sizə doğru
qaçır
sonuncu
durna çığırtısı –
Ehey, sizi aldadırlar.

*2006*

* * *

Təbiət canını
dişinə tutmuşdu;
Yerdə - quşların
ölümü.
Göylərsə qanadı
qırılmış kimi
gildir-gildir
yaş axıdırdı bu ölümə.
Quşlar xəstəliklərini də
götürüb
ölkə-ölkə
gəzirdi.
Həkimsə tapılmırdı.

*2006*

## KÜÇƏ

Yerişlərə dolanan küçə,
Yürüşlərə yollanan küçə,
Baxışları yanan küçə,
Gecə keçdi, e…
Yatsana.

Gedənlərindən üz çevir,
Gələnlərinə duz çevir.
Yüz ölç, yüz biç, lap yüz çevir,
Gecə keçdi, e…
Yatsana.

Yatdın, gözün yumulmadı,
Qaçdın dizin yorulmadı,
Ağ gündüzün yorulmadı,
Gecə keçdi, e…
Yatsana.

*2004*

## KİM TANIYAR ONLARI

*Pis əməllərə yol açan pis adamlardır.*

Mən onların sifətini görmüşəm,
Sevgisini, nifrətini görmüşəm,
Lap köçünü-külfətini görmüşəm.
Mənim qədər kim tanıyar onları?!

Mənim qədər kim tanıyar, kim yanar?
Varlığımda bir ömürlük kin yanar.
Ocaq yanar, bucaq yanar, tin yanar,
Mənim qədər kim tanıyar onları?!

Dirigözlü qurğudular, qurtdular,
Doymadılar, yeri, göyü uddular.
Çoxaldılar, düz dünyanı tutdular,
Mənim qədər kim tanıyar onları?!

Mən onların hər üzünü görmüşəm,
İblislikdə şər üzünü görmüşəm.
Nadanlıqda xər üzünü görmüşəm,
Mənim qədər kim tanıyar onları?!

Vallah, billah, yalan deyə bilmirəm,
Yaxşılara yaman deyə bilmirəm.
Pis adama «adam» deyə bilmirəm,
Mənim qədər kim tanıyar onları?!

*2003*

## BUNCA YÜK OLA BİLMƏZ ÖZÜNƏ QURĞUŞUN DA

Saçın ağ-ağ yolundu,
Başının ortası da
Deyən, işıq yolundu.
Nə belə tez ağardı
Saçın-saqqalın sənin?!
Qardaş, sənə nə oldu?
Hələ dünən görmüşdüm
Belə şaqqalı səni.
Bu gün
qaməti yorğun,
görkəmi sallaq palto.
Axı sənə nə oldu?
Nə oldu sənə, canım?
Nə oldu sənə, atam?
Ağ-ağ söküldü saçın,
Dağ-dağ uçuldu boyun.
Özündən ağır gəlir
Yerişin-duruşun da.
Bunca yük ola bilməz
Özünə qurğuşun da.
Canım, sənə nə oldu?
Gözlərinin dibindən
Kədərə yol düşübdür.
Giley-güzar bir yana,
Qəhərə yol düşübdür.

Tilsiməmi düşmüsən
Evlə iş arasında?
Var-gəl edirsən nədi
Yayla qış arasında?!
Gözlərin hey yol çəkir
Qışdan, bahardan belə.
Uğurmu gözləyirsən?!
Bəs uğur hardan belə?
Gözlərinə inanmır
Baxanda adam sənə,
Axı sənə nə oldu,
Nə oldu, atam, sənə?!

*2003*

## VERGİ

*Saqqal vergisi varmış, «Dinmə ver»*
*vergisi varmış bir zaman*

Günəşin işığına
Vergi qoyan kim imiş?!
Bir parça yerə hakim
Göyə də hakim imiş?!
İşıq, hava kiminmiş?
Bəlkə səhər yuxudan
Kim tez dursa, onunmuş?
Bəlkə Günəşi erkən
Kim tez görsə, onunmuş?
Saqqal vergisi,
İşıq vergisi,
hava vergisi…
Bəlkə insan bədənindəki
Hərarətə də vergi qoyurlarmış.
Kim bilə…
Gözdəki parlaqlığa,
Ağızda saf dişə də,
Qocalığa,
gəncliyə,
üzdəki qırışa da
vergi qoyulmuş bəlkə.
Bəlkə dərin nəfəsə də,
Bəlkə dəli həvəsə də
Alındakı düyünə də,

Zülmə qarşı
Nifrətə, kinə də
Vergi qoyulurmuş
Bir zaman.
Kim bilə…
Kim bilə…

*2005*

## ÖTƏN İLİN SON YUXUSU

Başında
bomba əkdilər
İraqın.
Canının ağrısı
qan kimi
axıb getdi
məsçidlərin dizi üstündən.

Ovuc-ovuc
Ovuclayıb qaldırdılar
Allaha
bu qanı.
«Yerdə qoyma, Allah» — dedilər.
Qan
ağrılı-acılı
fəryad oldu,
ucaldı minarələrə,
əzanların ağzından
qan fışqırdı.

Allah
Göydən baxırdı.
İraqın başında əkilən
Bombalara da
əlindən,
gözündən,
sözündən qan daman

adamlara da
baxırdı Allah.

İraq məsçidləri
qan gölmələrini
namazgah etmişdi.
Qan içində
namaz qılırdı
İraq məscidləri.
Yox,
Bu Səlib yürüşü
deyildi!

*2003*

# QIZLARI QOYMAYIN BARA GETMƏYƏ

Bəlkə qismətinə ev-eşik düşür,
Qızları qoymayın bara getməyə.
Görürsüz nə qədər dəyişik düşür
Gəlin otaqları, bar otaqları.
Gəlin razılaşın gora getməyə,
Qızları qoymayın bara getməyə.

Hər kəsin həyası özündə qalsın,
O bardan bu bara ötürülməsin.
Məsumluq boyası üzündə qalsın,
Bazardan-bazara ötürülməsin.
Qızları qoymayın bara getməyə.

Köksündə bir «Qüdrət qalası» uçar,
O əldən-bu ələ naləsi uçar.
Bahar çəmənindən laləsi uçar.
Qızları qoymayın bara getməyə.
Çılğın rəqsləri göbəyə düşər,
Sədası Parisə, Kubaya düşər,
Qorxun ki, yolları Dubaya düşə,
Qızları qoymayın bara getməyə.

Ondansa, ötürün gora getməyə,
Qızları qoymayın bara getməyə.

*2003*

## ÖLÜM YELLƏNCƏYİ

Səsimin eşidildiyi yerdən
Mənə doğru gələn yox.
Məni görən yox.
Özünü hündürə hörənlər
hündürdən yıxılırlar,
yıxılan tək də ölürlər.
Səsim hündürlərə çatmaz. –
Çığırmaz səsim.
Hündürlər –
qulaqı şəklənmiş,
ulduzları eşidər.
Ulduzlar göydə yox,
Yerdə eşələnərlər.
Eşdikləri nədi, bilmərəm.
Amma dənlədiklərini
bilərəm.
Hündürlərin
yuxarıdan səpdiyini,
tulladığını
dənləyərlər.
Dənləyər
Və bir-birinə
«Ulduz» deyərlər.

Hündürlər də
onları eşidər.
Mən ulduz deyiləm,
atam-qardaşım.
Amma qəti bilirəm –
Hündürlər
hündürdən yıxılan tək
ölərlər.

*2003*

## MƏNİMLƏ

İşinizə qarışmıram,
Sizinlə yarışmıram.
Vallah, mən danışmıram,
Dərd danışır mənimlə.

Öz yolunda - ömür gün,
Lalam, karam büsbütün.
Neyləyim, bir qədər tünd,
Sərt danışır mənimlə.

Sinəmdədir ah təki,
Axıb gəlir yağ təki.
Gah üzü boz, gah da ki
Pərt danışır mənimlə.

*2003*

# ƏLİNDƏN

Baxım görüm yamanlayır kim məni,
Niyə tutur, niyə vurur cin məni?
Qılıqlayıb yenə nifrət, kin məni,
Heç bilmirəm, hara qaçım əlindən?

Yığıb, yığıb, bənd olmuşam bir himə,
Məndən umur üz tuturam hər kimə.
Ağ qoç alıb indi məni tərkinə,
Qaçıraydı qara qoçun əlindən.

Yazıq olub əzabımdan dərd elə,
Ha üz vurur, özü olur pərt elə.
Qanım çıxmaz damarımı çərtələr,
Çırpınıram heçin-puçun əlində.

*2005*

## YARIMÇIQ ŞEİR

Sənsiz günlərimin – qulağı səsdə,
Əlimi hər yandan üzmüşəm elə.
Nahaq çiçəkləri mən dəstə-dəstə
Sənsiz otağıma düzmüşəm elə.

Bahar qapısında yaz ətri – incik ,
Gəzir xəyalların gül xətri incik.
Yazıram, ay balam, hər sətrim – incik,
Qələmdən, kağızdan küsmüşəm elə.

Gecə gözlərində yuxum – yarımçıq,
Yazıram-pozuram; çoxu – yarımçıq.
Götür bu şeri də, oxu yarımçıq,
Yolun yarısında azmışam elə.

Qısır ümidlərdən əlimi yudum,
İçdim acıları mən udum-udum.
Külünə gül olub yandığım odun
Üstündə qəbrimi qazmışam elə.

Diriyəm gizlində, üzdə nədənsə,
Ölmüşəm duyğuda, hissdə nədənsə.
Özüm başdaşımın üstdə nədənsə
Adını əlimlə yazmışam elə.

*2006*

## KÖRPƏ TƏBƏSSÜMÜYLƏ

İçimizdən
bezib
qəza boylanır
çölümüzə.
Çölümüz -
təzə-təzə
cücərmədə.
Əlimiz gicişir
gözümüz, könlümüz
durulmaq əvəzinə.
Bu cücərməyə
qabarırıq
tikan-tikan.
Hamımızdan
balaca,
bapbalaca
bir körpə ağlı
umur
çölümüz.
Xırdaca cücərtilərə
baxıb da
gülümsəyə
körpə
təbəssümüylə.

*2003*

## İMİC

Səbrinin ətəklərini
 dəstələyib,
Cəsarətinin qolunu
 çırmayıb,
Üzündəki ələyi bir tərəfə
 tullayıb,
Haqqının qılıncına
 çapdı.
Çapdı demə,
Özünü təndi
təhqirlərin,
 əllaməliyin,
şorgözlüyün,
ikiüzlülüyün ağzına.
Böyükxanımları
qapıda oturtmağı
 xoşlayan
kiçikxanımlar
ağalarının yanından
əzilə-büzülə
çıxdıqca
gəldiyinə peşman,
ümidlərinə
düşmən kəsildi.
Yığdı-yığmaladı
kiçikxanımların
işvə-nazını,

ənlik-kirşanlı
çöhrəsinin «gəl-gəl»ini,
uzun qılçalarının
çılpaq parıltısını,
daşdan keçən
                təbəssümünü.
Çəkdi çöhrəsinə,
gövdəsinə, ədalarına.
Özünə gendən baxdı.
Onu gördü, o birisini gördü.
Özünü görə bilmədi.
Özü ötən əsrdə qalmışdı.

*2003*

## BEŞ METR

Kürəyin dağa söykəndi,
dilin uzandı
beş metr.
Sarısını uddu sözüm,
əlin uzandı
beş metr.
Sıxıldı küncə imkanım,
yolun uzandı
beş metr.
Sözümü havada qapdın,
qolun uzandı
beş metr.
Qaldım bəmin nisgilində
zilin uzandı
beş metr.
Ümidimə qəbir qazdım;
Ölün uzandı...
Beş metr...

*2001*

## SƏN MƏNƏ LAZIM DEYİLSƏN

Sənə nə yazım deyirsən,
Mən yazanlar yazı deyil.
Sən mənə lazım deyilsən,
Mən də sənə...
Lazım deyil
Ölçü-biçi.
Bizimki ölçüdən keçib,
Bir dünya ölkədən keçib
Lap elə qovuşdum sənə,
Lazımsız bir yuva tapdıq,
Lazımsız bir sevgi tapdıq.
Lazımsız bir taleyi də
Lap gətirib qoşdum sənə.
Hərdən itirib başını
Lap məni lazımın bildin,
Mən də səni...
Lap elə danıb yaşını,
Lap elə danıb yaşımı,
Uyduq lazımsız bir hissə,
Lap elə bilmədən kimsə,
Mən sənin lazımın oldum.
Yox, yox,
Qoy zalımın olum.
Sən mənə lazım deyilsən,
Mən də sənə...
Daha nə yazım deyirsən?!

*2002*

* * *

Xəstə ovqatıma hər gün
Qüssə, kədər, dərd damır.
Dərman otsuz-qırx damcı,
Şer bircə bənd damır.

İndi bir-bir dişimə vurub,
Dostları dəstələyim.
Xalqın keyfi başına vurur,
Mənimsə xəstəliyim.

*2002*

## SƏHƏR-SƏHƏR

Yatır şəhər
səhər-səhər.
Yuxuda – nazlar, qəmzələr.
Saraylarda varlı yatır,
Var-dövlətdən karlı yatır:
Banklarında hesab yatır.

Səkilərdə kasıb yatır,
Dərdi, dağı körpəsi tək
Sinəsinə basıb yatır.

İndi kimsə oyanacaq.
Gərnəşəcək.
Sümüyündə yuxulayan
rahatlığı oyadacaq.
Cibindəki
qəhətliyi oyadacaq.
Ürəyində səksəkəni,
xəyalında bir loxmanı,
bir tikəni oyadacaq.
Sonra düşüb bir küçənin
damarını oyadacaq.
Bir firmanın,
bir dükanın
kəndarını oyadacaq.
Hovlu-hovlu,
başılovlu keçib gedən
bir ağaya dil tökəcək.

Gah ilana əl açacaq,
qurbağaya dil tökəcək,
gah yalana əl atacaq,
yalvaracaq, gül tökəcək
keçənlərin ad-sanına.
Yol salacaq toylarına.
Ümidləri boşa çıxsa,
tüpürəcək ehsanına.
Hələlik ki, səkilərdə
kasıb yatır.
Dilənməyə, işləməyə
ümidlərdən qısır
yatır,
küsüb yatır.

*2002*

## “QİSMƏT” DEYİB

Daha bir də kimsənin
qəlbinə yük olmaram.
Vallah, göründüyümdən
Zərrə böyük olmaram.
Ömür bir qara qışsa,
bu qışa kürk olmaram,
Yaşayaram bir dönük
Taleyi “qismət” deyib.

Yenə öz əllərimdən
Düşən badəyə dönnəm,
Gedən qadaya dönnəm,
İtən sədaya dönnəm.
Bir mağmın, bir qaragün
Canda ədaya dönnəm,
Xoşlayaram bir dönük
Taleyi “qismət” deyib.

İçərim göz yaşıyla
Dopdolu — bulud kimi.
Yağaram bu dünyaya
Qar kimi, dolu kimi.
Ümidlərim nağılmış –
Məlamət yolu kimi;
Daşıyaram bir dönük
Taleyi “qismət” deyib.

Döymərəm qapısını
Sevinclərin, qəmlərin.
Eləcə daşlaşaram
Bu sevgidən dəmlənib,
Yığıb başıma bir gün
Bütün bəxti kəmləri
Daşlayaram bir dönük
Taleyi "qismət" deyib.
Yaşamaram bu dönük
Taleyi "qismət" deyib.

*2004*

## DEYİL DAHA

Çıxım gedim bu dünyadan,
Dünya mənim deyil daha.
Nəyim vardı,
atım gedim,
Guya mənim deyil daha.

Hardan-hara güman qapım,
Bulud minib, duman çapım.
Dağ adlayıb, ümman çapım,
Həya mənim deyil daha.

Dörd tərəfim bazar açıb,
Sevəmmədim «qara qoçu».
Sürünüb təkəlli qaçım,
Ayaq mənim deyil daha.

*2004*

***

Gecələrdən sızıb gələn
Həzin bir ağrıyam axı.
Gündüzünü açammayan
Dünyaya bağlıyam axı.

Səbr edərəm ölənəcən,
Kösövümdən külüməcən.
İçərimdən çölüməcən
Mən elə haqlıyam axı.

Niyə məni görmür xuda? –
Olmaya ögəydir o da? –
Bu zülməti uda-uda,
İşığa doğruyam axı.

*2004*

## KEÇİR

Allah, bu adamın min sifəti var,
Mələk sifət altda cin sifəti var.
Savaş sifəti var, dinc sifəti var,
Bir adam gör neçə sifətdən keçir.

Bu adamın tamah dişindən – uzaq!
Uzaq – əməlindən, işindən – uzaq!
Oy, belə qadından, kişidən – uzaq!
Beləsinin yolu ifritdən keçir.

Yersiz ittihamın özü olarsan,
Fəryadın sızlayan sazı olarsan.
Köçürmə qəlbinə, yazıq olarsan,
Ona sevgini də nifrətdən keçir.

İstəyin doyurmaz ac ürəyini,
Ovuda bilməzsən daş ürəyini.
Öyrətmə əlinə quş ürəyini,
Quşun yem istəyi qəfəsdən keçir.

*2000*

## ƏLİMDƏ

İşim yox bu yaşda kimin kimi var,
Kimin kimə eşqi, kimə kini var.
Kimin sarayı var, kimin hini var,
Kimin səadəti güldür əlində.

Bir bunu bilirəm, ruhum inciyib,
Dost küsüb, yad itib, qohum inciyib.
Sinəmdən qopmur da, ahım inciyib,
Ömrün hər anı bir ildir əlimdə.

Dünyanın ağrısı ağrımsa, neynim,
Üstümə qəm-qüssə yağırsa, neynim?
Ürəyim başımdan ağırsa, neynim?
Neynim bu bəxti ki, gülmür əlimdə?!

Çıx məni bu bənddən nöqtəbənöqtə,
Pozulum bu dərddən nöqtəbənöqtə.
Bu əzab bu həddən nöqtəbənöqlə
Özünü endirə bilmir əlimdən.

Başıma od yağır bəxt əvəzinə,
Mən daş əridirəm vaxt əvəzinə.
Ömrü girov qoydum haqq əvəzinə,
Qazancım bir ovuc küldür əlimdə.

Çıxıb gedəcəyəm dərdimi qoyub,
Zəri gətirməyən nərdimi qoyub.
Fələk özü mənlə şərtini qoyub,
Dünya başdan-başa yoldur əlimdə.

Nə dərdə yanası ürəyim qalıb,
Nə arxa durası kürəyim qalıb.
Mənim bircə qismət çörəyim qalıb,
Qopara bilmirəm quldur əlindən.

*2003*

* * *

Sevinməyə bəhanə yox,
Mənsə kədərdən doymuşam.
Əlimi ürəyim deyib
Səbrimin üstə qoymuşam.

Gözləyirəm gedən yolu,
Ayrılıqda itən yolu.
Gəlib məndə bitən yolu
Qəbrimin üstə qoymuşam.

Nə dinim, nə də danışım –
Durum sükutla yanaşı.
Dərd-qəmini dost-tanışın
Qəlbimin üstə qoymuşam.

*2005*

* * *

Tilsimləyin qapıları,
Köçüm bu qapıdan keçir.
Məni dünyadan qoparan
Hökm bu qapıdan keçir.

Əli baltaya qonalı
Zülmün ürəyi qanadı.
Qırılıb qolu-qanadı –
Həkim bu qapıdan keçir.

Hər tərəf qanun yüklü,
Ümid var – boynu bükülü.
Gözü, qulağı tikili
Hakim bu qapıdan keçir.

*2004*

## NEYLƏYİM

Neyləyim, ürəyimə
Qara qanlar yol açıb,
Duyğuma, əməlimə
Tarakanlar yol açıb.
Di gəl ki, düz dünyaya
Gör nə canlar yol açıb,
Dənizlər, okeanlar
Ölkələr qapazlanır.

Mən açası qapılar
Tanrıdan tilsimlidir.
Hansına üz tuturam,
Tərsinə «simsim»lidir.
Şəhərlər mənzil-mənzil -
«Hamısı bizim»lidir.
Oba-oba, kəndbəkənd
Bölgələr qapazlanır.

Fillərin ayağında
Zəncir oynayır daha.
Şirlərin boğazında
Kəndir oynayır daha.
Akulalar qan duyub,
Əngi oynayır daha.
Əldən-ələ ölçülər,
Bölgülər qapazlanır.

Mən beləcə dərd olub
Gözdə qalan deyiləm.
İşəm, əmələm; quru
sözdə qalan deyiləm.
Qorxma, ay qaraçuxam,
Düzdə qalan deyiləm.
Məni düzdə qoyası
Tülkülər qapazlanır.

*2005*

## SƏN MƏNİM QƏLBİMİN...

Sən mənim qəlbimin möhnət yüküsən,
Sən mənim hissimin töhmət yüküsən.
Sən mənə qəm yükü, həsrət yükusən,
Qoysana yaşayım öz həyatımı.

Yoxam arxadakı, üzdəki sənlə
Ərkim çatmır daha əzəlki sənə.
Bilirəm, üzərsən desəm ki, sənə
Əlinlə ömrümdən üz həyatımı.

*2005*

## UCALIĞINDA DUR

Başın sağ olsun Vətən! –
Bir oğul da itirdin.
Sən öz ucalığında dur –
Ramil yetirən xalqın
ucalığında!
Ruslan –
adını da borc alıb
yaddan,
yağıdan rüşvət alıb.
Səni satan oğul itkisi
İtki deyil.
Ölüm olsun.
Beləsinə, inşallah!
Diriliyində elə
Vayına girmək gərək,
«Vətən oğlu, vay» demək,
«Tamahının ucundan
İtən oğlu, vay» demək.
Sən öz ucalığındasan,
Vətən,
Ramil yetirən
Xalqın ucalığında!

*2005*

# YƏQİN

Mən köhnə dünyadan daşıb gəlmişəm,
Əsrin çəpərini aşıb gəlmişəm.
Deyən zamanları çaşıb gəlmişəm,
Bu gəliş dünyanı dar etməz yəqin.

Çəkərlər məni də bərkə haçansa,
Yoxumdan var oldum bəlkə haçansa.
Bu «Vətən» deyilən ölkə haçansa
Məni də görməyə ar etməz yəqin.

Əvvəlim yox olub, sonum görünməz,
Əvvəldən – sonuca yolum görünməz.
Uçum, zirvələrə qonum, görünməz,
Bu uçuş gözləri kor etməz yəqin.

Elə tərs gətirir, bəxt də püşk imiş,
Kimin xeyrindədir? – Vaxt da püşk imiş.
Dünyanın seçimi saxta püşk imiş,
Başımız çox çəkib, kar etməz yəqin.

Yuxular görmüşük qu balıncında,
Bizi yatırdırlar su balıncında.
Vallah, xeyri yoxdu bu balıncın da,
Yatsaq, sirrimizi car etməz yəqin.

*2005*

## BİZDƏN QABAQDA

Hücum – bizdən qabaqda
gedir
Düzdə gedir,
dağda gedir.
Hücumun ardınca düşüb
çapırıq düzə-dağa,
çapırıq nəfsimizə,
çapırıq dərdimizə,
sevincimizə,
ağrı-acımıza.
Çapırıq
hücumun ardınca.
İgidik,
qoçağıq
ər oğlu ərik.
Amma
hücum deyilik.
Biz ondan
sonrakı hünərik.
Kimsən,
atam-qardaşım,
kimsən axı –
dilimdən düşmürsən.
Məndən irəlidəsən,
hara gəldi
çapırsan.
Məndən geridə
gəlsənə.

Qoy səni mən aparım.
Ardımca gəl.
Səni əlimdən alana,
Səni dilimdən alana,
Səni yurdundan
didərgin salana
çapıram.
Mən getdim…
İnşallah,
Sənə Qarabağda
çataram.

*2005*

## FƏLƏYİN ÇƏRXİ

Ürəyimin içində
Əriyirəm yağ kimi.
Ömrümün budağından
Düşürəm  yarpaq kimi.
Çəkilir ürəyimə
Çalın-çarpaz dağ kimi
Dünyanın ağrıları.
Gerçəkləşir ölümün
Ömrümlə gizlənpaçı.
Dünən arxa sandığım
Bu gün kölgəmdən qaçır.
Damdabaca yuxular
Qarşımda cənnət açır.
Dayanıb qapıdaca
Cəhənnəm oğruları.

Öyrəşmişik itkiyə,
Öyrəşmişik oğruya.
Dərdimiz, möhnətimiz
İçimizi doğrayır.
Qəddimdə, qamətimdə
Bir ağırlıq – gəzirəm.
Bu yadlar diyarında
Mən oğurluq gəzirəm.
İradəmin tiyəsi
Korlaşır gündən-günə

Qəlbim körüyə bənzər –
Boşalır gündən-günə.

Daha aça bilmirəm
Bağladığım qapını.
Ümidin son anına
Saxladığım qapını.
Taleyin sərt üzü də
Məni incitmir daha.
Əkdiyim, gözlədiyim
Ümidlər bitmir daha.

Yaxam əlində qalıb
Hisslərin, gümanların.
Dibinə daş atmışam
Qəlbimə damanların.
Daha nə qəm, nə sevinc
Yaxın buraxmır məni.
İstəyirəm dadına
Baxım, buraxmır məni.
Seldi, sudu insanlar –
Axın buraxmır məni.
Qoşulub da getməyə
Haqqım buraxmır məni.
Ey fələk, mənlik deyil,
Çərxin buraxmır məni.

*2005*

## AY ÜRƏK

Qoru bu həsrəti, qoru bu dərdi,
Varın-dövlətindi, qoru, ay ürək.
Bəlkə bir yaxına, dosta göndərdin,
Bəlkə bizə düşdü yolun, ay ürək.

Bəlkə bir mənə də yanasan elə,
Bəlkə özünü də yada salasan.
Bir ucdan-qulaqdan kənardan elə,
Özünçün özünü oda salasan.

Yoxsa ki, bu nədir, ay canım-gözüm,
Hamıya doğmasan, hamıya yaxın.
Birinin ağrısı, birinə dözüm,
Biri ləzzət alır halına baxıb.

Sən mənə yaxın ol, mənimlə dost ol,
Qoyma ki, oxşadım daşa da səni.
Mənim sevincimlə, qəmimlə dost ol,
Sən məni yaşat ki, yaşadım səni.

*2005*

## CÜMƏ AXŞAMI ÜÇÜN ELEGİYA

Bu gün cümə axşamı, -
Bu gün dördüncü gündür.
Kiminsə taleyində
qara yazılan gündür,
dərdə yozulan gündür.
Bugünün günahı nə -
vaydan keçir,
ahdan keçir.
Bir ağrılı
vaxtdan keçir.
Öz qışından
keçib gedir
dördüncü gün.
Göz yaşından
keçib gedir
dördüncü gün.
Bugünün günahı nə?
Fəryadı nə, ahı nə?

*2005*

# NƏ RƏNGDƏ

Səndən ümidimi üzmüşəm daha
Mənimlə üz-üzə gəlməkdən çəkin.
Səni tanımaqdan bezmişəm daha
Üzünə tutduğun ələkdən çəkin.

Daha tanımışam məramın nədir,
İçərin nə rəngdə, çölün nə rəngdə.
Bəxtində halalın, haramın nədir,
Dirin nə rəngdədir, ölün nə rəngdə.

*2000*

## ÖTƏN GÜNLƏR

Örpəyinin ucunu
Əlilə ağzına yaşmaqlayıb,
«Üzüm ayağının altına,
ay sədr» – dedi
Nazənin bacı.
«Bizim balaca
nasazlayıb bir balaca.
Onu doxtura aparacam,
İcazə ver, işə çıxmayım".
«Bir balacanın
zərəri yox,
Nazənin.
Qoy canı indidən bərkisin.
Sən işdən qalma»,
Dedi sədr.
Və çıxıb getdi.
Uşağın bir balaca
nasazlığı
böyüdü-böyüdü
və
apardı körpəni.
O gündən sədr
Hara gedirdisə,
ayağı altında
Nazəninin üzünü görürdü.

*2003*



# ÇIXIM TALEYİMDƏN, DÖRD YANA QAÇIM

## SÖZ VƏ MƏN

Özümü sınaqdan keçirim, dedim,
Bir daha özümdən uzağa qaçım.
Çırpım, silkələyim içimi, dedim,
Varsa,
günahımı yumağa qaçım.

Bir şülək gün olum, bir əlçim bulud,
Çıxarım bu qəlbi yuyum, qurudum.
Ümidim pak olsun, məqsədim ulu,
Yetər ki, haqq-nahaq sözdən yoruldum.

Ağlım kimdən gələn himi qarğıdı?
Mənə kələk gələn kim oldu yenə?
Sözüm birin asdı, birin qarğıdı,
Əzrayıl işini «tapşırdı» mənə.

Əllərim də sözə baxmadı daha, -
Vurub qaytarmadı ağrıdan sözü.
İlişib dişimdə qalmadı nahaq,
Dilim pörşələdi ağzımda sözü.

Eh, bir vaxt sözün də hökmü var idi,
Bazar açmırdı ki, sirr açırdı söz.
Sözün meydanına dünya dar idi,
Bağlı qapılara bir açardı söz.

Söz vardı – əskərdi, sərkərdə idi,
Qalaydı, sərhəddi, oda idi söz.
Söz cəbhədə idi, səngərdə idi,
Sözdən qaçanları budayırdı söz.

Söz paslana bilməz qılınc tək qında,
Sözün tiyəsi də, qını da candır.
Sözün kəsəri var igid qanında,
Söz dil bağlayandı, söz dil açandı.

Mənə nə düşübdü – söz satım axı, -
Sözü xırıd edim bez bazarında?!
Bir vaxt andım vardı mənim -
«Söz haqqı!»
Üzüm qızarardı söz qızaranda.

Yerinə düşmədi bir sözüm deyə,
Allaha çatınca söz məni vurdu.
Qaçdı bir ağızdan sirr sözüm deyə,
Zərbəsi hərlənib düz məni vurdu.

Özümü sınaqdan keçirim bəlkə,
Daha sözdən-sovdan uzağa qaçım.
Çırpım, silkələyim içimi, bəlkə,
Varsa,
günahımı yumağa qaçım.

*2006*

## MƏN BUYAM

*«Birinci pəncərə»*

Uzaqdan işıq gəlirdi,
İşıq-uşağa doğruydu,
Uşaq-işığa doğru.
Sonra
İşıq yoxa çıxdı.

*«İkinci pəncərə»*

Uşaq – işıq oldu,
İşıq – uşaq.
Uşaq mənə doğruydu,
Mən uşağa doğru.
Sonra
uşaq yoxa çıxdı.

*«Üçüncü pəncərə»*

Mən – uşaq oldum,
uşaq – mən.
Mən – özümə doğruydum,
Özüm – mənə doğru.
Sonra
Mən yoxa çıxdım.

*«Dördüncü pəncərə»*

Özüm mən oldum,
Mən – özüm.
Özüm – buyam;
Bu gün
Bir az o Dünya,
Bir az bu Dünya…

*«Beşinci pəncərə»*

Mən
İşıq olmuşam,
Uşaq olmuşam,
«Mən» olmuşam,
«Özüm» olmuşam.

*«Altıncı və sonuncu pəncərə»*

Mən — buyam;
Bu Dünyadan
O Dünyaya — Yol.
Vəssalam…
*2003*

## İNSANIN YERİ

Quyuya atılan daşdı fikirlər,
Ağlımın ardınca ip sallayan yox.
Yığılır bir dibsiz quyu dibinə,
Onu arıdan yox, sığallayan yox.

Lap elə-beləcə dəliyəm, dəli;
Əlli ağıllıdan* biri görünmür.
Atmışam quyuya daş fikirləri,
Dartıb çıxaranın yeri görünmür.

Hamı bir-birinə dargöz dünyanın
Gözdarlıq edəni yoxa çıxıbdır.
Allah, baş girləyir, baş qatır hamı,
Allah, astar üzdən baha çıxıbdır.

Min ildir keçdiyim yol da yadlaşıb,
Mən ötən əsri yorub gələnəm.
Heyif, çöhrələrdə nur da yadlaşıb,
Yoxsa bir xoş üzə durub gələnəm.

Mən alqış deyənəm səbrə, dözümə,
Mən xeyirə alqış deyənəm, axı.
Çökənəm, döyənəm dərdin dizinə,
Sevincə qırmızı geyənəm, axı.

---

* Məsəl; Bir dəli quyuya daş atdı. Əlli ağıllı yığışıb onu çıxara bilmədi.

İndi duyğular da bir dibsiz quyu,
Sevincin, kədərin rəngi bir gəlir.
Məni tanış yollar elə çaş qoyub,
Hər dərdin ardınca təksəbr gəlir.

«Qara» toya gedir, «qırmızı» yasa,
Olmaya ölümü bayram edirik.
Çirklini-əyinə, təmizi-tasa,
Beləcə dünyanı heyran edirik.

Eh, yenə də bir daş atdım quyuya,
Əlli ağıllıdan biri görünmür.
Kömülür dipdiri adam quyuya,
Bu boyda boşluqda yeri görünmür.

*2003*

# DİLƏK YAXASINA DÖNNƏM YENİDƏN

Yenidən döyərəm şər qapısını,
Dilək yaxasına dönnəm yenidən.
Kövrək ümidlərin tər qapısını
Bir titrək əl açar mənə yenidən.

Yaxına gələrəm, «salam» deyərəm,
Baxar, heyrətlənər, baxar, tanımaz.
Mən də baxışımla yalan deyərəm,
Mənim də baxışım yaxa tanımaz.

Dilək yaxasından geriyə dönnəm,
Bir addım, beş addım, halım yeriməz.
Elə orda qalan ürəyə dönnəm,
Ayaqlarım gedər, yolum yeriməz.

Ovuc xətlərimi gəzərəm bir-bir,
Geriyə dönüşüm düyünə düşər.
Sayar düyünləri nəzərim bir-bir,
Sevgi düyünündə oyuna düşər.

Üzünə gün doğar bir tər ümidin,
Gözləri böyüyər –
Nə olub, nə var?
Bu duyğu, bu heyrət ötərimidi?
Hardan çıxıb bu gün –
açılıb hava?

Nə acəb yol azıb, yol tanıyıbsan?
Olmuşa, keçmişə dönüşün hardan?
Belə qayıtmağa utanmayıbsan?
Üstündə qızılın, gümüşün hardan?

Gileyli getmişdin ömrün ardına,
Gözlərin həməndir, yerişin toxdaq.
Gün hayandan çıxdı, döndün ardına?
Niyə tel vurmadın gəlişin haqda?

Əlləri qoynunda gəncliyinəm mən,
Bir az da geridə — uşaqlığınam.
Belə ahıllıqdan inciyirəm mən,
Vallah, acıyıram qocalığına.

Ay zalım, azarın-bezarın hardan?
Qəlbindən gözünə yolu görmürəm.
Alış-verişdəsən,
Bazarın hardan?
Niyə ciblərini dolu görmürəm?

Elə get-gəldəsən ömrün ardına,
Sevinc aparırsan, qəm gətirirsən.
Nə qoyaq bu andır əmrin adını? –
Dərdi kim tullayır, sən götürürsən.

Boş burax, bu dünya dəvə belidir,
Çıxıb oturdunmu, gəzdirər səni.

Vallah, ağlayarsan — elə ölüdür,
Güldün, gülüşüylə bezdirər səni…

Vəssəlam, burdanca geriyə dönnəm,
Bir addım, beş addım… Halıma yazıq.
Ağrıyan, göynəyən ürəyə dönnəm,
Ayağımdan tutan yoluma yazıq…

*2004*

## FRAQMENTLƏR

Bu gün ölə bilmədim, -
Sabaha yol açıqdı.
Sabah üzüyolaydım,
Ölüm məndən qaçırdı.

* * *

Dərd dolu bir gecəni
Bir qurtuma boşaltdım.
Xəyanətə ad qoydum:
Şuşa, Laçın, Daşaltı.

* * *

Yenə əvvəlki kimi
Ağlımla «gül vururam».
Ağılsızlar pul qırır,
Mənsə qeybət qırıram.

* * *

Eh, ay gənclik şəkilim,
Qocalıq goreşəndi.
Gözünü göylərə tut
Mənimlə görüşəndə.

** *

Dünya dolu sevgidir,
Ürək qızmır heç kimə.

Sığınıb dayanmışam
Mən də Allah eşqinə.

* * *

Çatlayan divar kimi
Ürəyimə çat düşüb.
Tanrı dərd bölüşürmüş,
Kimə necə, bilmirəm,
Mənəsə min qat düşüb.

*2006*

## MİNİATÜRLƏR

Ovuca sığmayan
bir şapalaqla
sol yanağında
günahları
alışıb yandı.

* * *

Yalan danışmağa
ürəyi gəlmirdi,
Doğru deməyə
dili.

* * *

Yuxum gündüzə
budaqlana bilmədi.
Oturdum eləcə
gecənin dibində.

* * *

Gündüz işığına
Can atan
Saatın əqrəbi idi,
Yoxsa mənim kipriklərim?!

* * *

O Dünyaya çatınca
Bu Dünyanın
Nəfəsi kəsildi.

* * *

Elə deyirdi:
«Özüm üçün yaşamıram».
Başqası üçün
yaşadığını da
görən olmamışdı.

* * *

Gecənin ağrısı
Sancı çəkirdi
Dan yerində:
Kainat
Günəş doğurdu.

*2006*

* * *

Bir az məndən kənar dolan,
Bir az aralı gəz məndən,
Qılıncla kölgəmi belə,
Özün yaralı gəz məndən.

Desinlər, əlindən yanır,
Sən adda dostunu danır.
Səni ölmüş, itmiş sanır, -
Qəlbi qaralı gəz məndən.

Mən çəkilim qəm tərəfə,
Sözüm çəp düşən tərəfə.
Bir azca keç mən tərəfə, –
Dərdli, bəlalı gəz məndən.

*2006*

* * *

Daşına baş qoyacağım
Torpaq altı boşdu, bala.
Mən – dərd hürgüclü bir dəvə,
Mənə belə xoşdu, bala.

Ağrı-acı – əkiz-tayım,
Zaman gözümdə laxlayır.
Ayaqlarım ömrün sayır,
Demə ki, sərxoşdu, bala.

Dünən – sabahın dönüşü,
Yoxdu bu darın genişi.
Mən enən – zirvə enişi,
Sən qalxan – yoxuşdu, bala.

*2005*

* * *

«Sözümün canı var» dedin,
Canını allam sözünün.
Sənin olsun, geri götür
O yerdə qalan sözünü.

Sözün canı canım olsun,
Söz canıma qənim olsun.
Ən sonuncu anım olsun
Desələr yalan sözünü.

Söz canında sözə gəlləm,
Düşüb dağa-düzə, gəlləm.
Əzizləsəm, gözə gəlləm
Bircə yol «balam» sözünü.

*2006*

* * *

Yorulmuşam, yorğunluqdan
Canım içimdə qıvrılır.
Gün-dirilik – qaçaqaçda,
Yollar qıçımda qıvrılır.

Daddım ömrün sərtliyini,
Gizləmirəm pərtliyimi.
İçimdəki dərd düyünü
İlan biçimdə qıvrılır.

Kimdir – yarası qəlbimdə? –
Gəlsin, arasın qəlbimdə.
Günün qarası qəlbimdə,
Ağı saçımda qıvrılır.

*2006*

## BU BAHAR DA

Bu bahar da bizə bir şey vermədi,
Solub getdi, gözə bir şey vermədi.
Çox görmüşdük, təzə bir şey vermədi;
Ötən ilki bahar oldu bu bahar.

Haçan gəldi, haçan getdi, bilmədik,
Mülayimdi, xoşdu, sərtdi, bilmədik.
Oyun idi, düşdük, şərti bilmədik,
Huşda mürgü bahar oldu bu bahar.

Bülbülləri ötdü elə uzaqda,
Çiçəkləri öpdük elə uzaqdan.
Salam-kalam etdik elə uzaqdan,
İlin yükü bahar oldu bu bahar.

Gül-çiçəkdə batan kəndi olmadı,
Dadı, duzu, şəhdi, qəndi olmadı.
Yellənməyə şüvül, kəndir olmadı, -
Tay de, itki bahar oldu bu bahar.

Görünən tək yığışmağa tələsdi,
Dağda, düzdə yağışlara tələsdi.
Pəncərədə naxışlara tələsdi,
Qışın kürkü bahar oldu bu bahar.

Yığışmaqnan yay qapını haqladı.
Çimərliyə yol axını haqladı.
Yay da yaydı, öz vaxtını haqladı,
Demə bürkü bahar oldu bu bahar.

Bu bahar da bizə bir şey vermədi,
Solub getdi, gözə bir şey vermədi.
Çox görmüşdük, təzə bir şey vermədi,
Ötən ilki bahar oldu bu bahar.

*2003*

## ÖMÜRDƏN KAM ALIM

Bir qədər şöhrətə qol-qanad açım,
Özümlə göz-gözə qalım bir qədər.
Çıxım taleyimdən, dörd yana qaçım,
Ömürdən-gündən kam alım bir qədər.

Mənə gün vermədi qısır arzular,
Məqsədsiz ümidlər əhdimi üzdü.
Qanımı sorub da yesir arzular,
Sərhəddimi üzdü, həddimi üzdü.

Daha pərdələri endi bu ömrün,
İçimdən quruyan ümmanam daha.
Didim, parçalayım indi bu ömrü,
Dörd yandan yığılan ünvanlam daha.

Daha seçəmmirəm hər toranlığı,
Yolum hayanadır, daha bilmirəm.
Çöküb gözlərimə şər toranlığı,
Arzumca, kamımca baxa bilmirəm.

Döyülmür qəlbin də sevinc qapısı,
Qəm də yaxasını, əlimdən çəkib,
Ağrılar, acılar kimə tapınsın? –
Duyğular gözünü qələmdən çəkib.

Nə idi küsdürən özümdən məni?
Kim idi sarsıdan dəyanətimi?

Yığıb ləpir-ləpir izimdən məni
Özüm, öz sirrimi bəyan edimmi?

Yeni ünvan alan yürüşlər hara,
Yeni mehvər tapan qəlb hara gedir?
Bəs hara can atır görüşlər hara?
Sevinc hardan gəlir, qəm hara gedir?

Ömürdən adlayan vaxt sərhəddimi?
Mən niyə özümü ötən olmuşam?
Gecənin gündüzə ağ sərhəddini
Eləcə gözümlə öpən olmuşam.

Ayaqdan saldığım bu yollar nədir?
Bu ömür-gün nədir, bu ahlar nədir?
İstəklər, ümidlər, meyillər qədər
Dərdimə yüklənən bu dağlar nədir?!

Açdım qapısını hər gülər üzə,
Daha bu ürəkdə sirr qalmayıbdı.
Məni xeyir gələr, şər gələr, — üzər,
Elə gileyə də yer qalmayıbdı.

Qoy bir az şöhrətə qol-qanad açım,
Özümlə göz-gözə qalım bir qədər.
Çıxım bu taledən, dörd yana qaçım,
Ömürdən-gündən pay alım bir qədər.

*2004*

## BAŞ GİRLƏYİRƏM

Mən də öyrəşmişəm yalan deməyə,
Mən də yalanlarla baş girləyirəm.
Tutub arzuların boş damarını,
Bir insan ömrünü boş girləyirəm.

Çıxıram bir sərxoş gün qabağına,
Girim cin cildinə, cin papağına.
Ömrün boş qazanı, boş qapağını
Boş-boş hərləyirəm, - iş girləyirəm.

Dəliyəm əlindən, dad diləyirəm,
Bu bəxtə, qismətə ad diləyirəm.
Ömrün soyuğundan od diləyirəm,
Mən ki yaşamıram, yaş girləyirəm.

İndi də bilmirəm iş nə yerdədi,
Bahar nə yerdədi, qış nə yerdədi.
Mala nə yerdədi, xış nə yerdədi, -
Dərdimi, sərimi «xoş» girləyirəm.

Çəkdim qulağını bir səhvin yenə,
Düşdüm dabanına bir cəhdin yenə.
Qaldı gözümdəcə bir əhdim yenə, -
Neynim, ayağımda daş girləyirəm.

Çatdıra bilmədim sona bir ömrü,
Saldım müsibətə, qana bir ömrü.

Məşələ döndərib yanan bir ömrü,
Elə əcəlimə tuş girləyirəm.

Çöküb bir həsrətin lilinə döndüm,
Nalənin, fəryadın zilinə döndüm.
Bir qərib sevginin dilinə döndüm,
Olmaya bu yaşda eşq girləyirəm?!

*2005*

## BU İLİ

Bu ili də keçirərəm birtəhər,
Bu ildən də köç edərəm birtəhər,
Ömrü-günü puç edərək birtəhər,
Köhnə kürk tək soyunaram bu ili.

Bu il mənə nə vermədi – nə olsun ?! –
Əzab verdi, - kədər olsun, qəm olsun.
Sevgi verdi, – həm olmasın, həm olsun,
Saldı məni oyunlara bu ilim.

Saldı məni dağa-düzə, sınadı,
Göylərində sınıq çıxdı qanadım.
Heç bilmirəm yenə niyə can atır
Açılmayan düyünlərə bu ilim.

Sürüyəcək ayağında bu canı,
Qəzəb dişi yenə mənə qıcanıb.
İş tapmırmış – bir mən kimi qocanı
Çoban etdi qoyunlara bu ilim.

Deyən elə ara vurub gedəcək,
Cəhənnəmə-gora, vurub gedəcək.
Mən bilirəm, yara vurub gedəcək
Həyatından doyanlara bu ilim.

Yaddaşımdan silib atdım o günü,
Qismətimə gülüb, atdım o günü.

Yaxşı etdim, bilib atdım o günü,
«O gün»süz də yuyunaram bu ili.

Bu ili də keçirərəm birtəhər,
Bu ildən də köç edərəm birtəhər.
Ömrü-günü puç edərək birtəhər
Köhnə kürk tək soyunaram bu ili.

*2004*

## DOST KÜSƏNDƏ

Küsəndə
belə küsərlər sən demə.
Salam-kəlamı
kəsərlər, sən demə.
Birgə keçilən fəsillər, sən demə
Tənhalaşar,
qəribləşər küsəndə.

Xatirələr
qəfil sancar qəlbini,
Töhmət edər qara qançır qəlbini.
Dost itkisi dost tək açıb qəlbini,
Həzinləşər,
zərifləşər, küsəndə.

Dost küsübsə,
Ayın, ilin yadlaşar.
Öz içində dinən dilin yadlaşar.
Üz döndərər,
doğma elin yadlaşar,
Dedi-qodu
dərinləşər küsəndə.

Yolun bitib izlərində görərsən,
Oxunursan gözlərində görərsən.
Elə yayın qızmarında görərsən
Aralar da
sərinləşər küsəndə.

Küsəndə
belə küsərlər, sən demə…

## OVLAYIB APARDI, BİR OVÇUM VARDI

Məni vüqarımdan qırıb atdılar,
Sürüyüb atdılar səbrimdən məni.
Qazıyıb atdılar, vurub atdılar
Beşiyimdən məni, qəbrimdən məni.

Abrıma qısılan çağlarım oldu,
Ağlımdan üzülən vaxtlarım oldu.
Nə məni itirib axtaran oldu,
Nə tanıyan oldu sətrimdən məni.

Ağlayıb üstümdə yaş axıtdılar,
Guya ümid yoxmuş, baş ağrıtdılar.
Yürüdüm, arxamca daş axıtdılar,
Duya bilmədilər ətrimdən məni.

Çəmən çiçəyinə dönüb də getdim,
Yandım için-için, sönüb də getdim.
Gördüm sevənim yox, çönüb də getdim,
Saldılar dərbədər əsrimdən məni.

Tanrıya can atdım, can borcum vardı,
İçində ürəyim — bir ovcum vardı.
Ovlayıb apardı, bir ovçum vardı –
Qiymətimdən məni, qədrimdən məni.

*12.01.05*

* * *

Ağ günün ağ bayrağını
Tutub başıma, gedirəm.
Hər gün məndən keçib gedir,
Mənsə işimə gedirəm.

Yolum-gümrah, yolum-yorğun,
Yolum – bəd nəzərdən oğrun.
Bir qoçaq hünərə doğru
Döyüb döşümə gedirəm.

Gedirəm səhərdən keçib,
Dopdolu şəhərdən keçib.
Təptəzə bahardan keçib,
Gəlirəm xoşuma, gedirəm.

*2006*

* * *

Bu güllə dəydi-dəymədi,
Bağrımın başı deyəcək.
Məni dərdmi əydi belə –
Desə, bir naşı deyəcək.

Ağla daha zülüm-zülüm,
Məni anıb, ağla, gülüm.
Sevənlərə varsa ölüm,
Sevgimin yaşı deyəcək.

Ötürdüm bu ilimi də,
Ovucladım külümü də,
Adiləşən ölümü də
Qəlbimin daşı deyəcək.

*2005*

* * *

İndi bildin-bilmədin,
Sənin deyiləm daha.
Keyfin kimlə istəsə,
Gəz-dolan, əylən daha.

Çıxmısan dümdüz yerə,
Daha çökmə diz yerə.
Keyfini çək yüz yerə,
Min yerə  paylan daha.

Haqq özü göydən baxır,
Gözlədiyin an – yaxın.
Nə içində yan-yaxıl,
Nə üzdə söylən daha.

*2005*

## ODUR Kİ

Nahaq yerə haqq sözümü udmuşam,
Bir ömürlük div dözümü udmuşam,
Heç nəyi yox, mən özümü udmuşam,
Sözə, gözə təpilmirəm odur ki.

Həqiqətəm, gözə pərdə deyiləm,
Xeyirdəyəm, şurda-şərdə deyiləm.
Lap sən deyən bəxtəvər də deyiləm,
Qısılmıram, çəkinmirəm odur ki.

Dolu gedir, boş qayıdır üstümə,
Dörd fəsildə qış qayıdır üstümə,
Tulladığım daş qayıdır üstümə,
Sözdən-bezdən kəsilmirəm odur ki.

Əməlim ki, istəyimə tor deyil,
Bilən bilir, görən görür, kor deyil.
Çəkildiyim söz hücrəmdi, gor deyil,
Azalmıram, əksilmirəm odur ki.

Gəlsəm belə söz dünyamla söz-sözə,
Bükürəm də, çökürəm də diz sözə.
Söz haqdısa, tapınıram düz sözə,
Hər ürəyə səpilmirəm odur ki.

*2006*

## SORĞU

Yaxşıdır –
yarımçıq yollar kimi,
küsülü dostlar kimi,
aldanmış uşaqlar kimi
yaxşıdır bu həyat.

Mənə mükafatı –
iki dəyə ikinin
qiymətinə şübhə.
Özümün diriliyimə şübhə.
«Sabah yaxşı gün olacağ»a
şübhə.

Əlimdən aldıqları –
Xoşbəxt olacağıma
inam.
Öləcəyimə inam.
Yenidən dünyaya
qayıdacağıma inam.

Mənə verdikləri –
heyrət,
sadəlövhlük,
məhəbbət,
nifrət.

Ona borcum –
can borcum,
ömür borcum,
nəfəs borcum,
ruh borcum.

*2004*

* * *

Yenə qəlbim
çiçək-çiçək
açıldı
gələn bahara.
Mənim
nə yaşımdır axı?!
Vur-tut –
Altmış altı!

*2006*

* * *

Bir az borc aldım –
Sevinc borcu.
Bir çimdik
duz kimi qatdım
yeməyimə.
İştahım
buz kimi əridi
yeməyimin
dadında.
İlahi,
mənə pay göndər, -
bir qismət
sevinc payı.
Yoxsa
acından ölərəm.

*2006*

* * *

Səni vəd verdiyin yerə
kimi ötürdüm.
Gəldiyini görmədim,
gəlmədiyin –
vədindən bəlli.
Gəlmədiyin yerə kimi
ötürdüm gedişini.
İçərim –
əlçim-əlçim
bulud.
Sükut uşağı, sükut,
Cavab versənə, -
hanı bə gəlişin?

*2006*

* * *

Qapını kimin
üzünə açım?
Qapı bağlı qalmaqdan
yorulub.
Mənə açılıb,
mənə örtülməkdən
usanıb qapım.
Sən də
yollarını
yığa-yığa ötüşürsən
qapımdan.
Üzündəki
təbəssümün
işığına açıla
qapım,
ay gələn…

*2006*

* * *

Sübut aşkarlıqdan
diyirlənən daşdır –
başa da düşə bilər,
ayağa da;
Çünki insan
bütün ömrü boyu
öz yükünü çəkir –
hətta başqaları
onun boynunda
otursa belə…

*2006*

* * *

Çəkisini itirmiş adam
oturmuşdu
kölgəsinin dibində.
Kölgə
əriyə-əriyə
çıxırdı canından
adamın.

*2006*

* * *

Hövsələmi
çəngələməkdən
səbrim
didik-didikdir.
Ümidin dili
gödək,
nigarançılığın
gözünün kökü
saralmış.
Allah,
bu yorulub
yolda qalmışı
hansı tərəfdən
gözləyim?
Xeyir tərəfdən?
Şər tərəfdən?
Yoxsa ki –
hər tərəfdən?

*2006*

* * *

Ağlım məni
su aşağı axıdıb,
su yuxarı axtardı.
Duyğularım
əlimdən tutub
həsrətin
qapısınacan
apardı.
Döndüm də
qaçım əlindən;
əlsiz qalsın
bu həsrət!
Sənə zalım adı
qoyub,
mənə məzlum;
dilsiz qalsın
bu həsrət.

*2006*

* * *

Qapımın
bir gözü var –
bircə hənirtiyə bənd.
Bərələcək
içəridən bayıra:
Kimsən,
ay hənirti,
nəsən?
Borca gələnsən,
diləyə gələnsən?
Bəlkə qəlbindəki
həsrət gətirib səni?
Bir bəri dur
görüm;
işıq pulusan,
qaz pulusan,
su pulu?
Allah eşqinə,
götür
bu pulu,
həsrətin pula imiş…

*2006*

## MİNİ ŞERLƏR

Keçirtdim əzabları
Ömrümün yaxasından, -
Övladım olsun.

Canım ağzımdan çıxınca
Onunla can bir qəlbdəyəm, -
Qanadım olsun.

Neynim, göz açıb gördüyüm
Ondan qeyri bir kəsim yox, -
Halalım olsun.

Ondan ayrıldığım gün
Onun ardınca qaçdığım
Gün olacaq, -
Vüqarım olsun.

*2004*

## YAĞIŞLI YAY GECƏSİ

Axıdır başıma
bu nəm işığı,
Elə şırıltıyla
üzüaşağı.
Sıxır gözlərini
          bu qara gecə,
Yağır bağ-bağata,
          yollara gecə.
Bir ara vermir də
zalım uşağı, -
İşıq yağışına
axışır elə.
Sıxır gözlərindən
bir yetim bala
qəlbinə toplanan
yağışı elə.
Küçə şıdırğıdı
təkər səsindən.
Adamlar – tələsik,
adamlar – yetik.
Yetib bir-birini
ötər səsindən
Avtolar,
taksilər,
duracaq səsi.

Yağış
işıqları kəsir,
doğrayır,
Lampalar – asılı
papaqlarından.
Bu yaş küçə kimi
uzanan yağış
Süzülür gecənin
ətəklərindən.
Şəhərin əlləri
başında qalıb,
Gizlənib yerişlər
çətirlər altda.
Axır pəncərədən
çölə baxışı –
Bir şair hıçqırır
sətirlər altda.
Sınır səmaların
dor ağacları, -
Sınır, səmaların
quluncu sınır.
Səksənir küçənin
duracaqları, -
Göylərin ildırım
qılıncı sınır.
Şaxıyan, şığıyan
od şırımı da
ölür dağ buludun

aşırımında…
Bax, bir yay gecəsi
elə beləcə
Mələklər od çatıb
su qızdırırdı,
Yağış bir şəhəri
islağa qoyur,
Göylər bu şəhəri
çimizdirirdi.

*2006*

***

Dərdin-başı aşağıdır,
Ehtiyacın əli.
«Yox»un gözü kölgəlidir,
«Var»ın başının üstü.

*2003*

## QƏDƏMİ UĞURLU QARDAŞ

*Qardaşlarım Seyfəddin və Yavər üçün*

Ay belə qədəmi uğurlu qardaş,
Ömrümün bayramı, noğulu qardaş,
Ay işgüzar qadaş, ağıllı qardaş,
Sənli xoşbəxtiyəm bu yer üzünün.

Əlimi səninlə gülən görmüşəm,
Qəlbimi səninlə sevinən, qardaş.
Hara getmişəmsə, dönən görmüşəm
Yollarımı
Sənin evinə, qardaş.

Qollarımı sənin görüşlərinə
Açılan görmüşəm, uçan görmüşəm.
Ruhum qanadlanıb yerişlərinlə,
Səni zirvələrdən uca görmüşəm.

Gələn işığınla, xoş sorağınla
Qapı açanımsan, nur saçanımsan.
Həyatın, taleyin sərt varağında
Zəhmət ünvanısan, zəhmət anısan.

Elə sıxılmışam duyğularıma,
Sözümün nədənsə şərbəti çatmır.

Fikirim, intizarım qayğılarında,
Evimin sən adda sərvəti çatmır.

Ay belə qədəmi uğurlu qardaş,
Ömrümün bayramı, noğulu qardaş,
Sənli xoşbəxtiyəm bu yer üzünün…

*2000*

* * *

Bir gözəl görəydim,
Gözəldə ürək,
Ürəkdə sevgi.

Bir sevgi görəydim,
Sevgidə işıq,
İşıqda həyat.

Bir həyat görəydim,
Həyatda səadət,
Səadətdə-özüm.

*2002*

## MƏKTUBA CAVAB

Səni oxuyanda tələsdim, eşit,
Soyuq ürəyimə yel əsdi, eşit.
Çıxdı qabağıma eləsi, eşit,
Dedim məktubun tək xışdayım, əzim.

Qaldı, ya qalmadı söz yaddaşımda,
Oxudum, qiyamət qopdu başımda.
Bir anda min fıkrə düşdüm, daşındım,
Bir anda min yerdən qayıtdı səsim.

Nələr itirmişəm, xəbərim yoxmuş,
Üstümə hürənə çəpərim yoxmuş.
Mənim səbrim yoxmuş, təpərim yoxmuş,
Əlim boğazımda –
yoxun tiyəsi.

Yetirib, qırmağa qıfıl istədim,
Himayə durmağa tifıl istədim.
Birindən yardımı qəfil istədim,
Yazığın ağzında şişdi tikəsi.

Nə yazıq, heyim yox əzab çəkməyə,
Varlının varına həsəd çəkməyə.
Ya ara açmağa, ya sədd çəkməyə
Nə özüm yaradım, nə də bir kəsim.

Lap elə Allahdan aşağı sənsən,
Tamahın ən yekə qaşığı sənsən.
Dünya cəhənnəmin aşiqi sənsən,
Sən varsan, Dünyanın bəsidir, bəsi.

Daha nə arayıb, axtaraq axı,
Qayıdaq o qərib vaxtlara axı.
Gün qara, üz qara, baxt qara axı,
İtəsi nəyim var –
üstündə əsim.

*2003*

## AY XANIM

*...üçün*

Deyirsən, bəs mən nə işlə məşğulam?
Ömür boyu qarlı qışla məşğulam.
Mən işimdə dırnaq, dişlə məşğulam,
Sənin məndən nə xəbərin, ay xanım?!

Baxışımda əzab sənə tanışmı?
Saçlarımda sazaq sənə tanışmı?
Haqq göndərən cəza sənə tanışmı?
Çıxıbsanmı bu səfərə, ay xanım?

Yurd saldımı ürəyində dərd-ələm?
Hönkürtdümü səni hədyan, hərzələr?
Hər addımda qəfil gələn zərbələr
Çırpıbdımı səni yerə, ay xanım?
Çoxmu çapdın çörəkpulu qılınca?
Çoxmu sındı iradənin quluncu?
Başın üstdən zaman uçub, il uçub
Bir söz üstdə neçə kərə, ay xanım?

Qamətini mənzil «yox»u bükübmü?
Nəfəsinə mətbəx hisi çökübmü?
Kirəkeşlik şumlayıbmı, əkibmi
Gəncliyini nifrətlərə, ay xanım?

Təkcə bumu mənim işim deyirsən?!
Sərgərdandı ağlım, huşum deyirsən.
Hələ mənə azmı düşüb deyirsən,
Alqış deyim ifritlərə, ay xanım.

*2003*

## SAÇIMA BİR ƏL ÇƏK

Gücüm nəyə çatır, burda mən kiməm?
Kimdir ümidimə çıraq yandıran?
İşimə, gücümə bəlkə hakiməm?
Bəlkə duyanım var, maraqlandıram?!

Bəlkə əllərimi üzümə çəkib,
Salavat deyirəm süfrə başında.
Mənim ümid yolum izini çəkib,
Mənim inam yolum müftə daşındı.

Nə çıxıb getməyə ürəyim gəlir,
Nə də üz görmüşəm, qalım yanında.
Əlində bir qismət çörəyim gəlib,
Vətənsən, arxasan zalım yanında.

Dərdin hər üzündən keçirtdin məni,
Gah ümidim oldun, gah üz çevirdin.
Xeyir-şər üzündən keçirtdin məni,
Gah kəsdin başımı, gah duz çevirdin.

Dünyamsan, mən səni söymərəm daha,
Səndən üzülməyin zülmünü gordüm.
Sənə «Cənnətimsən» söylərəm daha,
Səndə dirigözlü ölümümü gördüm.

Yenə də Vətənsən, qərib deyiləm,
Andımsan, arxamsan zalım yanında.
Neyləmək, çox şeyə şərik deyiləm,
Saçıma bir əl çək, qalım yanında.

*2002*

## SƏNİ

Yarıb əngəlləri, üzümə çıxdın,
Elə bil dünyanın düzünə çıxdın.
Gözümün altıydın, gözümə çıxdın,
Silib atmalıyam gözümdən səni.

Niyə atmalıyam, hələ bilmirəm,
Düzü bir məxrəcə gələ bilmirəm.
Gözümü səninlə bölə bilmirəm,
Ayıra bilmirəm özümdən səni.

Yoluna çıxıram, başıaşağı,
Baxışım yaş olub, daşır aşağı.
Burax ətəyindən daşı aşağı,
Daş kimi götürüm izimdən səni.

Dərdim ayaq üstə kölgədir daha,
Ümidim dirilib, yol gedir daha.
Xəyalım bir uzaq ölkədir daha,
Orda axtarıram, düzü mən səni.

*2002*

***

Ömrün qışından sıyrılıb,
Buz içindən çıxa bildim.
Yalan - palandan uydurub,
Söz içindən çıxa bildim.

Uçdum da göyüm dolusu,
Taqətim, heyim dolusu,
Boylandım boyum dolusu,
Öz içimdən çıxa bildim.

İlməyəm naxış içində,
Şöhrətəm alqış içində.
Bu qədər baxış içindən,
Göz içində çıxa bildim.

*2004*

***

Vurub keçək altmışı,
Altımışdan diri çıxaq.
İrəli çıxa bilmədik,
Neylək, geri-geri çıxaq.

Yarı solub, yarı gedib,
Bu ömrün lap arı gedib.
Gəlsən, bir az geri gedib
Altımışdan biri çıxaq.

*2004*

## QALMADI

Başa vurdum bu yolu da boş daha,
Bir kəs görməz sifətimi xoş daha.
Mən asmışam ürəyimdən daş daha,
Sənə doğru uçan halım qalmadı.

Başım-gözüm dərd əlilə yolundu,
İçim-çölüm dost-düşmənə bölündü.
Nə yaxşı ki, kim kim idi – bilindi,
Ötüb keçdi intizarım, qalmadı.

Elə sənli günlərimə yanırdım,
Solub gedən güllərimə yanırdım.
Aylarıma, illərimə yanırdım,
Külə döndü ah-zarım, qalmadı.

Yaşa, gülüm, istəyincə, kamınca,
Yenə kimsə sürünəcək dalınca.
Mən ki dözdüm son nəfəsim qalınca,
Ölüb getdim, heç məzarım qalmadı.

*2004*

* * *

Daşa böhtanmı atırsan?
Daş ki bir mərdlik yoludu.
Daşı da daşa basırsan,
Daş səndən üzüsuludu.

Daş «ah oxundan dəlindi»,
Daş – daş ürəkli gəlindi.
Daş – daş altında əlindi,
Daş – daş tək üzüyoladı.

Daş ki vaxtın öz üzüdür,
Daş ki baxtın düz üzüdür.
Daş ki haqqın boz üzüdür,
Daşın daş üzü yonuldu.

Bir binaya özüldü daş,
Bir küçəyə düzüldü daş.
Brilyantdı, qızıldı daş,
Daşı daş görən yanıldı.

*2005*

* * *

Damlalar asılıb
Pəncərə şüşələrindən.
İstidən soyuğa baxırlar
Hürkə-hürkə.

Qar üzümüzü ağartdı,
İçərimizi buzlatdı.
Nə yaxşı;
Yaman isti idik
Gün-güzəran qayğılarına.

*2002*

## SƏNİNLƏYƏM, AZADLIĞIM

Qəlbimdəki məhəbbəti
qovub çıxartdım,
Gözlərimdən o həsrəti
ovub çıxartdım,
Qamətimdən əsarəti
yuyub çıxartdım,
Səninləyəm, azadlığım,
daha səninlə.

Lap elə bil mən yenidən
açdım dünyanı,
O üzündən bu üzünə
keçdim dünyanın,
Keçidindən, zirvəsindən,
aşdım dünyanın,
Səninləyəm, azadlığım,
daha səninlə.

Eh, qoy daha o göylərdə
uça bilməyim,
İstəyimi «balam» deyib
quca bilməyim.
Bir kimsəni əziz tutub,
uca bilməyim,
Səninləyəm, azadlığım,
daha səninlə.

*2006*

* * *

Allahına şükr elə –
Ölənin-itənin yox.
Tinlərdə bitənin yox,
Allahına şükr elə.

Bir tikə çörəyin var,
Sevməyə ürəyin var,
Kölgəli kürəyin var,
Allahına şükr elə.

Dost-tanışın, qardaşın,
Dar günündə-dərddaşın,
Ömrün hissə sarmaşıq,
Allahına şükr elə.

*2002*

## MƏN GƏRƏK...

Arzumdan bircə barmaq
boyuma qatmalıydım,
Həyatda boş nə varsa,
Başımdan atmalıydım.
Dünyanın ən ağrısız
Dərdindən enməliydim.
Zamanın bu gününə
Qədimdən enməliydim.
Yoxluqların içindən
Var olub çıxmalıydım.
Xəyanətə, nifrətə
Daralıb çıxmalıydım.
Qəlbimin genişindən
Bir azca kəsməliydim.
Səbrimin ətəyini
Yığıb tələsməliydim.
Bir gecə yuxusundan
Yurdu oyatmalıydım,
Hər yatan əsgərə bir
Ordu oyatmalıydım.
Oymalıydım gözünü
Bütün yamanlıqların.
Düzdə çəmənliklərin,
Dağda dumanlıqların
Dünənində quylanan
Dilləri açmalıydım.

Qönçəsində uyuyan
Gülləri açmalıydım.
Ömrün ağrılarından
Xəyal bal dadmayaydı.
Gah içərim, gah çölüm
Məni aldatmayaydı.
Başqa cilddə oyanıb
Ruhum da səhv düşəydi,
Qismətin tək azı yox,
Çoxu da səhv düşəydi.
Mən gərək belə gəlib,
Belə qayıtmayaydım,
Dünən ayaq kəsdiyim
Yola qayıtmayaydım.

*2003*

## BU PAYIZ

Sapsarı xəzəlini –
Ovuc-ovuc qızılını
Səpdi başıma bu payız.
Şirin, dadlı meyvəsilə,
Almasıyla, heyvasıyla
Çıxdı qarşıma bu payız.
Qırmızı nar yanağıyla,
Sovqatıyla, qonağıyla
Gəldi xoşuma bu payız.
Yağışını, küləyini,
Çətirini, çəliyini
Tökdü qarşıma bu payız.
Bilmədim seçim hansını,
Hamısı da göydən asılıb.
Zaman olub, miras olub
Çökdü yaşıma bu payız.

*2002*

## MƏN ÖZÜMÜ YANDIRIRAM

İçimdəki ağrıların əvəzi yox,
Baxım görüm nə verəcək bugün mənə.
İtiyimə, qazancıma tərəzi yox,
Kim yüklədi bu çəkilməz yükü mənə?

Nə anladım bu ömürdən, baxım görək,
Məndən sonra kimi qalır Həzrət Sözün?
Məni anan, məni duyan axı gərək
Söz içində, söz altında gəzə Sözü.

Ölümümdən qayıdıram hər gün evə,
Qəlbimdəki nifrət mənə qan uddurur.
Yolum yoxdu pay-pürüşlü sərgilərə,
Zaman məni zərbəsilə tanıtdırır.

Bir sözün də, bir dostun da tapıntısı
Ömrə-günə sevincsə də, cəhalətmiş.
İndi bildim, duyğuların sarsıntısı
Diriyə də, ölüyə də xəcalətmiş.

Əfsus, ötüb keçən günlər qısır imiş,
Heçmiş, puçmuş yazdıqlarım,
pozduqlarım.
Şairlik də ruha, cismə qüsur imiş,
Nə qınayım mən oxucu yazıqları?!

Ağıl məndən iş gözləyir, söz doğulur,
Əməl qalır, məqsəd qalır öz içində.
Mənə yanmır bu söz qızım, söz oğulum,
Mən özümü yandırıram söz içində.

*2005*

## DÜNYA BELƏ GÖZƏLDİSƏ

Dünya belə gözəldisə,
Həyat belə şirindisə,
Bu göylərin mələkləri
Yerindisə,
Bu mələklər ürəyinə
dincliyinə yeridisə,
Sən də elə o mələyin
birisənsə,
ölsən belə,
bir mələyin ürəyində
dirisənsə.
İnsan edib
Səni göydən endirənə
bağlısansa,
Bir körpənin,
bir qocanın
ağlısansa,
hüşusansa,
Ümidlərlə
qoşasansa,
Çaşıb bir gün
nadinclərə
qoşulsan da,
Nə yaxşı ki,
varlığında yox olmadın.
Bir nadanın həyatına,

bir naçinsin ürəyinə
soxulmadın.
Yol vermədi
qaraçuxan.
düz yolunda şaşırasan.
Öz əlinlə qurduğunu
öz yoluna aşırasan.
Nə yaxşı ki,
Görə-görə gəldiyin tək
Görə-görə gedirsən də.
Göydən yerə
mələkləri endirsən də,
Baş tutmayan,
diz çökməyən,
ümidlərdən
göz çəkməyən
diləkləri endirsən də,
Yenə özün olub qaldın.
Öz işinə
əməlinə
elə özül olub qaldın.

*2005*

## ƏZABIMLA BAŞ-BAŞAYAM

Meylini nəyə salmısan?
Nədən ötrü alçalmısan?
Hicranmısan, vüsalmısan? –
Hər nəsən,
məndən uzaq ol.

Allah xətrinə, yasaq ol,
Nə aciz ol, nə yazıq ol.
Qar ol, buz ol, ya sazaq ol,
Hər nəsə,
məndən uzaq ol.

Mən – eyzən əzab içində,
Mən – eyzən təzad içində.
Sən verən cəza içində
Sərməstəm,
məndən uzaq ol.

Söz yoldadı, qələm yolda,
Ölüm ola belə yol da.
Mən bu gedən-gələn yolda
Sərbəstəm,
məndən uzaq ol.

Əzabımla baş-başayam,
Nə sevinc, nə göz yaşıyam.
Mən qəlbində daş daşıyan
Bir kəsəm,
məndən uzaq ol.

*2005*

## BU QIZIN

*Bir müğənni qız üçün*

Dedi-qodu ayaq tutub yeridi,
Şübhələrdən dayaq tutub yeridi.
Qançanağı taya tutub yeridi,
Söz-söhbəti aşıb-daşdı bu qızın.

Görə-görə hiyləsini, qəsdini,
Tanımadı düşmənini, dostunu.
Susdu, açıb-ağartmadı üstünü,
Ört-basdırı asanlaşdı bu qızın.

Yaz ağzıydı, don biçirdi bahar da,
Təravətdən bal dadırdı zəhər də.
Düşüb qalmaq olmurdu ha şəhərdə,
Bir kənd eşqi alıb qaçdı bu qızı.

Əl-ətəkdə sübh şehinə bulaşdı,
Çöl-çəməndə yaz mehinə dolaşdı.
Necə oldu – qanad açdı, qol açdı,
Dərdi-səri hara uçdu bu qızın?!

Kənddə kəndlik nə gəzirdi, canım ta, -
Şəhərlini, elatlını tanıda?!
İtib-batdı olan adı-sanı da, -
Çıxdaşı da başabaşdı bu qızın.

Ötüb-keçdi bahar daha, yaz daha,
Şəhər üçün darıxırdı qız daha.
Kar etməzdi qayğı daha, söz daha,
Vallah, deyən ağlı çaşdı bu qızın.

Yenə elə o günlərə qayıtdı,
O toylara, düyünlərə qayıtdı.
Yerli-yersiz oyunlara qayıtdı,
Ömrü-günü nağıllaşdı bu qızın.

*2006*

# İNŞALLAH

Gözəllik həddini aşan bu qızlar,
«Qızlar bulağı»ndan daşan bu qızlar,
Göyərçin qanadı açan bu qızlar
Arzudan-arzuya uçar, inşallah.

Barışan ulduzlar haqq qapısıdır, -
Döyər sevgilərin vaxt qapısını.
Elçilər bəzəyər baxt qapısını,
Qızlar o qapıdan keçər, inşallah.

Gözəllər əlində həna xoş olar,
Deyilən sağlıqlar cana nuş olar.
Bu sevincə ata, ana quş olar,
Uçub o badədən içər, inşallah.

Vağzalı başlayıb, söz yığışanda
Gəlinlik boylanar qız baxışından.
Ana sevgisinin göz yağışında
Qızlar ər evinə köçər, inşallah.

*2003*

## DAVASI QALIB

Ağını yaşadım ağrılarımda,
Mənim günlərimin qarası qalıb.
İçim ömür deyib bu zəhəri də,
Qara günlərin də yarısı qalıb.

Çöküm həsrətimin dizində yatım,
Canımda, qəlbimdə, gözümdə yatım.
Yatıb bu bəxt daha, özüm də yatım,
Bəxtin nəyi qalıb, harası qalıb?

Alıb əllərimi ovcuna hicran,
Ümidim peşiman, qəlbim pərişan.
Məni bu həsrətə kim qoyub nişan? -
Dərdini göndərib, davası qalıb.

*2005*

## QALDIM DÖRD KÖLGƏMİN DÖRD DİVARINDA

Dünya – mənim üçün oxunmuş kitab,
Getdiyim-gəldiyim yollar da bəlli.
Pərdə arxasına marağım itib,
Bağlı qapılara uzanmaz əlim.

Varlığa, yoxluğa səbəb gəzmirəm,
Vurub topuğuna dünyanın ağlı.
Qayğı gözləmirəm, ədəb gəzmirəm,
Haqsız da haqlıymış, haqlı da haqlı.

Hər kəsin haqqını haqq özü verir,
Tanrı aparanı dünya saxlamaz.
Hərəyə bir ömür vaxt izin verir,
Bir addım kənara qoya, saxlamaz.

Möcüzə ardınca çapmıram daha,
Mənə ərk eləmir dərdini dünya.
Təzə bir sevinc də tapmıram daha,
Açmır bu sevincə pərdəni dünya.

Fikrim də yad olub dosta, tanışa,
Duyğumun qəlbinə damanı itib.
Daha söz-söhbətim asta danışır,
Arxaya-dayağa gümanı itib.

Düşdü öz ağlının ardınca hamı,
Qaldım dörd kölgəmin dörd divarında.
İndi – qapım, bacam, döşəməm, damım,
İndi ağrımağa dərd də varımdı.

*2003*

## YOLLAR

Boylana-boylana qalmışam daha,
Bu sazı əlimə almışam daha,
Mən öz musiqimi çalmışam daha,
Məni zaman yordu, nəki bu yollar.

Çəkilib gedərdim, üzüm gəlməyir,
Düşüm ayağına, dizim gəlməyir.
Vallah, gedirəm e… izim gəlməyir,
Elə sənə tərəf çəkir bu yollar.

Geriyə qayıdan üzü var elə,
Gedirəm, arxamca gözü var elə.
Dayanım, bəlkə bir sözü var elə,
Məni qılıqlasın təki bu yollar.

*2006*

## GEC EDƏR, GÜC EDƏR

Mən heç kəsin quyruğunu basmadım,
Mən heç kəsi buynuzundan asmadım.
Mən heç kəsin qarşısında əsmədim,
Özüm oldum öz ömrümdən bac alan.

Zaman məni qar dəni tək əritdi,
Qara-qara qayğılarla qarıtdı.
Gah bəxtimdə ağ gün olub yarıtdı,
Gah qoymadı bircə qarış ucalam.

Boş-boşuna axıb gedir vaxt özü,
Fələk görür –
tərsə dönür çərx özü.
Qisas qalmaz qiyamətə, haqq özü
Güc elərsə, etdiyini gec elər.

*2006*

***

Yazdıqlarım
itib-batdı
yazmadıqlarımın
içində.
Heç birisindən
doya bilmədim.
Yazmadıqlarımın
yazdıqlarımı
sıyırıb
üzə duracağı günü
gözləyə-gözləyə
günümü bükmüşəm
göy əskiyə.

*2006*

## QAPIM

Bağlaya bilmədim mən bu qapını,
Elə açıq oldu vaxtın üzünə.
Qondu bir günahkar təbəssüm olub
Qismətin üzünə, baxtın üzünə.

Nə qazanc gətirdi, nə sərvət mənə,
Neyləyək, verdiyi qanada şükür.
Bir bucaq saxladı, bir xəlvət mənə,
Dar gündə sığınam,
buna da şükür.

Elə açıq oldu vaxtın üzünə,
Gördüm səmalara tən bu qapını.
Gah üzgün, gah məmnun baxdım üzünə,
Bağlaya bilmədim mən bu qapını.

Keçdi uğur kimi, keçdi qəsd kimi,
Keçdi xatirələr –
doğmalı, yadlı.
Açdı qollarını köhnə dost kimi,
Bu qapı hamını qoynuna aldı.

Nə dərdə, qayğıya çatıldı qaşı,
Nə haya, haraya örtüldü qapım.
Bəlkə əzablara bir elçi daşı,
Bəlkə ağrılara körpüdü qapım?!

*2004.*

***

Səni açmadığım
kitab kimi örtdüm.
Örtdüm də,
bir daha açmayım.
Kitab oxumağı
xoşlamıram daha.
Ümidim
dağa dirənəndən
kitab oxumuram.
Oxuduqlarım
kitab deyil;
özüməm,
odur,
o biridir.
Hamısı da
mağmın,
hamısı da
məyus.
Örtə-örtə gedirəm
bütün kitabları,
bütün qapıları.
Sonuncu kitaba
iki kitab,
sonuncu qapıya
bir qapı qalır.
Sabah
gələrsən, ölüm.
Bu gün
vaxtım yoxdur.

*2003*

***

Əllərim məni
üzü üstə qapayır,
gördüklərimi
sıxır gözlərimə.
Sıxır ki,
bəlkə yaşara,
yaş gələ gözümdən.
Gözlərim isə
ürəyimlə
əlaqəni üzəndən
ağlaya bilmir.
Əllərim sıxır gözlərimi.
Gördüklərini
Çıxaprıb tökmək istəyir
ürəyimin qarşısına.
«Bax, yan, yaxıl!
Əvvəl -
Vətən,
Sonra -
qoca, cavan,
qadın, uşaq…
Hamısı da
Gözünün yaşında.
Hə…
Yan də…
Bacarmırsan.
Ay səni!»

*2004*

***

Əvvəlcə
Əlim sıxıldı:
Dözümlü ol!
Sonra
gözüm sıxıldı –
ağlamamaq olmazdı.
Sonra
qəlbim sıxıldı –
yaman darısqal idi
ürəyimin yeri.
Dərd hər tərəfdən
yeriyirdi
üstünə.

*2003*

***

Əlimi qaldırıb yellədim
ardınca;
Pəncərə şüşəsinin
tozunu silirmiş kimi
getdiyin yolun
göyünü sildim.
Sildim ki,
səni aydın görüm.
Uzun-uzadı
İzləyim
bu gedişi.
Getdin,
bilirəm, qayıdacaqsan.
Yenə əlim qalxacaq.
Bu dəfə
yolun göylərini
silməyə yox,
pərdəni çəkib,
qapını açmağa.
Sonra?
Sonra
pərdə salınacaq.

*2003*

## QAPI

Qapı
açılmaq üçündür.
Açandan sonra
çıxmaq üçündür.
Qapını içəri aç,
bayıra ört.
Bayır həmişə
xətir-hörmət
gətirmir.
At ağızlı
söz-söhbət,
it gözlü,
it nəfsli
çıxdaş da
gətirir bayır.
Hörmətin
artıq olsun,
içəri
açılan xoş niyyət,
təmiz ürək,
bakirə qədəm.
Səndən keçmək
günahdı.
Savab
günahın yarısıdı.

Günahın yarısından
qayıtmaq
savabın işidi.
Qayıdan
içəri açılandı.
Açıl
savablara,
örtül günahlara.
Günahlar
bayırdan
gəlir,
örtül.

*2003*

## QONŞUM

Evimin sağ divarı
qonşuyla şərikdi.
Sağ divara bitişmək
qonşunun peşəsidi.
Qonşunun peşəsidi
qonşusunu
sol divardan o üzdə qoymaq.
Mən isə
qonşumu sağ divara
salmışam.
Qonşum
hər səhər
hər axşam
üzünü sol divara tutub
deyinir.

Deyinir, sol divara,
Olmazın sözlər deyir.
Nə bilim,
«sənin üzün o tərəfə dönsün.
Görüm,
o tərəfini də
bir bəzəyənin sığallayanın
olsun.
Görüm o tərəfdən də
bir bəri üzü
qulağa duranın olsun».

Amma öz aramızdı,
Qonşu divarı qarğısa da,
Məni alqışlayır.
İş burasındadır ki,
mən ev ala bilməsəm də,
qonşu almışdım.

*2003*

## KEÇ GÜNAHIMDAN

Fələk məni daşa döndərdi daha,
Elə yaşayıram candərdi daha.
Ağlaya bilmirəm bu dərdi daha,
Ağlaya bilmirəm, keç günahımdan.

Olan oldu, daha qorxudan keçib,
İnkirdən-münkirdən, sorğudan keçib.
Əgər bu yuxusa, yuxudan keçib
Ayıla bilmirəm, keç günahımdan.

Eh, səbrin əlində əsayam elə,
Zəhəri bal dadan kasayam elə.
Özcə qapımı da qəzaya elə
Bağlaya bilmirəm, keç günahımdan.

Çıxarıb gözümdən pərdəni atdım,
Qorxunu, hədəni, hərzəni atdım.
Yaxşı ki, bir az cəld tərpənib atdım,
Saxlaya bilmədim, keç günahımdan.

Fələk məni daşa döndərdi daha…

*2003*

## YAXŞI Kİ, BEŞ QARIŞ YER BİZİMLƏDİR

Biz təzə bilirdik,
Köhnə dərd imiş,
Bu qəm darvazası indi açılır.
Qalıb anrı üzdə yaman qartımış,
İndi min oyunu, fəndi açılır.

Aldıq boynumuza, sındı qəddimiz,
Boynuna qol saldıq, əl-ayaq açdı.
Düşdük ayağına, aşdı həddini,
Qalxdı çiynimizdən, fələyə uçdu.

Uzanan əllərə məhəl qoymadı,
Baxışı adladı başımız üstdən.
Arzuya, ümidə möhür qoymadı,
Qədəmi daş oldu işimiz üstdə.

"Birimiz" böyüyüb, "iki" olmadı,
Elə dərd böyütdük, çaylara döndü.
Ölüb getməyimiz itki olmadı,
Öldük də, itdik də,
Bayrama döndü.

Yox, biz yaşamadıq yası yas kimi,
Çəkdik başımıza sərxoş toyları.
Ötürdük sabaha bir miras kimi

Arsız çal-çağırı,
yersiz səyləri.

Eh, elə bu köhnə dərd bizimlədir,
Təzə dərdlərə də kəfən biçən yox.
Yaxşı ki, beş qarış yer bizimlədir,
Hələ ki, beş qarış yeri ölçən yox.

*2003*

***

Daha mənimki qurtardı,
O dünyaya yolum da yox.
Bu dünya məni götürmür,
Sağım yoxsa, solum da yox.

Niyə susur ürək, niyə?
Dərdi var ki, gələ, deyə?
Ölüb gedim gələcəyə,
Necə axı? Ölüm də yox.

*2003*

# İLLƏR NƏ SÜRƏTLƏ KEÇİR, İLAHİ

Hələ yuxularım çin olmayıb ki,
Məni sevindirən gün olmayıb ki,
Dünyaya gəlişim qan olmayıb ki,
İllər nə sürətlə keçir, ilahi!

Məni aparmağa tələsir yoxsa?!
Qurulub əcəlin tələsi yoxsa?!
Olmuşam qismətin köləsi yoxsa?!
İllər nə sürətlə keçir, ilahi!

Niyə havalanıb halı bu ötrün? –
Canını azarmı alıb bu ömrün?!
Yaxası əlimdə qalıb bu ömrün –
İllər nə sürətlə keçir, ilahi!

Elə gün-gün, ay-ay paylanan olduq,
Çöküb dərd-sərinə, quylanan olduq.
Getdi, arxasınca boylanan olduq, -
İllər nə sürətlə keçir, ilahi!

Vaxt, belə tələsmə, bir ayaq saxla,
Məni döndər elə bir qaya, saxla.
Daha gecəni də gəl oyaq saxla, -
Bu ömür  sürətlə keçir, ilahi!

*2005*

## BİLMİRƏM

Mənim ağrımağa meyilli canım,
Ağrıdan, əzabdan «xeyirli» canım,
Bu «qiymətli» canım, «dəyərli» canım
Niyə öz yolunu çaşıb, bilmirəm.

Kim oldu gözümdən düşürən məni?
Sızladan, buzladan, bişirən məni?
İynənin gözündən keçirən məni
Kim oldu, kim oldu? Yaxşı, bilmirəm.

Zirvələr önündə qayaydım elə,
Sahmandım, qanunum, qaydaydım elə.
Kaş necə vardımsa, qalaydım elə,
Məni bu köçə kim qoşub, bilmirəm.

Düşdüm bir düyünün əsəb yoluna,
Qısqanclıq, cığallıq, həsəd yoluna.
Salıb da ömrümü həsrət yoluna,
Kim atdı arxamca daşı, bilmirəm.

Dərd – cöhrəmə aşiq – bir hələ kimi,
Səsim qulağımda – ah-nalə kimi.
Ömür də sel kimi, şəlalə kimi
Vaxtdan haçan aşıb-daşıb, bilmirəm.

*2005*

## TAQƏTİM

Məni məndən alan duyğu, çəkil get,
Kimə tərəf üz tutursan, əkil, get.
Tez gedirsən, gec gedirsən, təki get,
Daha yoxdu naz-buzuna taqətim.

Əməllərim qız qarıyıb əlindən,
Yox olmuşam sən ömrümə gələndən.
Ruhum ayrı düşüb kağız-qələmdən,
Həsrət qalıb arzusuna taqətim.

«Yox» dedikcə varlığına qarışdım,
«Var» dedikcə yoxluğunla barışdım.
Mən bu «yoxa», mən bu «vara» alışdım,
Yox bu alın yazısına taqətim.

Nə gizləyim, səni bəxtim sanırdım,
Sənsiz elə öz-özümü danırdım.
Necə olsa, bu təkliyə hənirdin,
Çəkil, çatsın cəzasına taqətim.

*2005*

## QOYAN DEYİL

Mən elə bilirdim çəkib qurtardım,
Arzular ömrümü ac qoyan deyil.
Bütün yasaqları keçib qurtardım,
Daha dərd başıma tac qoyan deyil.

Keçdi o qovğalar, o günlər keçdi,
Qəlbimə vurduğun düyünlər keçdi.
Dalaşmaq, barışmaq… oyunlar keçdi,
Kimsə aramıza daş qoyan deyil.

Məni daş bilmişdin, divar, bilmirəm,
Sənə bu töhməti rəva bilmirəm.
Qapalı qəlbində nə var, bilmirəm,
Biliyim bu yolda baş qoyan deyil.

Belə axşamladı qəlbimdə səhər,
Sızladım nə qədər, dözdüm nə qədər.
Mənim çörəyimə qatdığın zəhər
Sənin də gününü xoş qoyan deyil.

*2005*

* * *

Gəl, daha qəm çəkmə sən,
Heç nədən nəm çəkmə sən.
Baxta qələm çəkmə sən,
Bilmək olmaz baxt nədir.

Çapma gümana elə,
Qəlbə damana elə.
Ömür – əmatət elə,
Görəcəksən vaxt nədir.

Tut ömrün ətəyindən,
Duzundan, əppəyindən.
Fələyin təpiyində
Haqsız nədir, haqq nədir?!

*2005*

## SÖZÜN AÇIĞI

Doymuşam dünyanın toy-bayramından,
Bahar bayramından, yay bayramından.
Plov bayramından, çay bayramından,
Doymuşam, gözümün aclığı yoxdur.

Daha heyrətim yox ağ yalanlara,
Məndən borc adına bac alanlara.
Tülkü meydanında tac alanlara
Hirsimin, hikkəmin acığı yoxdur.

Fərqi nə, kim-kimə badalaq gəlir,
Düzlük ki azala-azala gəlir.
Bülbülün ardınca yapalaq gəlir,
Vallah, sözün bundan açığı yoxdur!

*2006*

* * *

Söz torbası açılmadı,
Bu sözə də ac olmadı,
Sözdən bizə tac olmadı,
Qoy biz olaq sözün tacı.

Qış günəşi ayaz olar,
Ürək doyar, dayaz olar.
Bu dərdi çəkən az olar,
Gəl bu yükü özün daşı.

Səbrin dizində yatmışam,
Dərdlərimi qanatmışam.
Mən ağlamağı atmışam,
Qıyma mənə, gözüm yaşı.

*2006*

* * *

Bütün əzablarımın,
Üstündən xətt çəkmişəm.
Ağrının mənə doğru
Yoluna sədd çəkmişəm.
Ətrafımda keçilməz
Hasar, sərhəd çəkmişəm,
Mənə yol tapmaq olmaz.

Olmuşların hamısı
Yuxuydu - keçdi, getdi.
Bu adda məhəbbət də
yoxuydu, - keçdi, getdi.
Ürəyimə sancılan
oxuydu, keçdi getdi, -
Məni yumşaltmaq olmaz.

*2005*

## PİŞİK BALASI

Ötən il bu vədə
Anasının qarnındaydı.
İndi
buludun, yağışın,
Günəşin altında.
Pəncələrinin qır dadını
yalaya-yalaya,
Günəşin qızılı rəngini
böyür-başında
sığallaya-sığallaya
əl-üzünü yuyur
hər səhər
üzü günçıxana.
Qonşu evin
yastı-yapalaq damında
yumalanır,
nazlanır, bozlanır
qışdan çıxan qumrulara…

*2005*

***

Diz çöküb şerin uzaqlığına
Əllərimi duaya tutdum.
Məni şerimdən əvvəl öldür, Allah.
Şerimi məndə yox,
Məni şerimdə öldür.
Canım çıxanacan
Yazmağa ruh ver mənə.
Sonuncu cümləm
Ağzımdan şerlə çıxsın,
Amin!

*2003*

* * *

Barmaqlarım asılqan
ömrün əzabına,
nəşəsinə.
Ovcumu açıq tutmuşam
Dünyanın Ayına,
Günəşinə.
Neçə vaxtdır
işıq diləyirəm,
isti diləyirəm,
ümid diləyirəm
gözümə,
ürəyimə,
qəlbimə.
Barmaqlarım –
asılqan;
Asılıb barmaqlarımdan
uğurlarım,
itkilərim,
varlarım,
yoxlarım.

*2003*

## HƏR KƏS ÖZ ƏYNİNDƏDİR

Daha bizim heç nədən
Qorxumuz, hürkümüz yox.
Gizli-aşkar talanda
Qurtumuz, tülkümüz yox.
Hər kəs öz əynindədir,
Başqa bir kürkümüz yox.
Hamımız sonbeşiyik,
Ərköyün ilkimiz yox.
Dünən söydüyümüz də
Bugünkü özümüzük.
Yadlara dözümlüyük,
Doğmaya dözümsüzük.

Necə olub bilmirəm,
Sevinci dərd bilmişik.
Damarda dayanmayan
Qan kimi çərtilmişik.
Pisliklərin önünə
Pərdəyik, çəkilmişik.
Yadımıza sığınan
Adımızdı daşqalaq.
Döyülən, söyülən biz,
Əzizlənən başqalar.

İtib-gedib o yaxın
Keçmişin əndazəsi.

Bugünün hesabında
Sabahın həndəsəsi.
Zirvəli dağlar bilib
Dərdə kəmənd atırıq.
Düşmən murada çatır,
Bizsə dərdə çatırıq.
Lap yaxşı da... Heç nədən
Qorxumuz, hürkümüz yox.
Hər kəs öz əynindədir,
Birovuz kürkümüz yox.

*2003*

***

Dur,
Get, üzünü yu.
Üzünə çəkdiyin
dözümü yu.
Yaşını udan
gözünü yu.
Dur,
get, əllərini ütülə.
Əllərindəki soyuqluğu,
Məyusluğu ütülə.
Əlin soyumasın,
İş səni gözləyir.
İşlə günlərini,
Aylarını,
Bütün qalan ömrünü.
Sevgi boş şeydir.
Düzdür,
Bir az xoş şeydir.
Amma
Daha keçmiş ola…
Ona baş əymək
Sənin işin deyil.
Səninki
Dərd-sərdi,
iş – gücdü.
Sevməkdən
vaz keç!

*2004*

## NİYƏ UNUDUB MƏNİ

Səbrimin dizi çöküb
Həsrətimin mehrabına,
Hər gün dua edirəm
Yaradanın adına.

Hər gün əlim duada,
Gözüm dünyadan qayıdır.
Mənə bircə söz söylə,
Bir söz məni ayıldar.

Bəlkə bu bircə sözün
Ahıdır, tutub məni.
Bu sözü deyən adam
Niyə unudub məni?

*2005*

## QAYIT, AY İLHAMIM, A DƏRDİM, QAYIT

Bir təzə, bir yaxşı xəbərə uçum,
Darvazaya uçum, çəpərə uçum.
Uçum gecələrin gizli qoynundan,
Uçum gündüzlərin sözlü qoynundan.
Döyülən qapıya «ay kimsən?» deyim,
«Duyğumsan, qayğımsan, sevgimsən» deyim.
Ay yoxa çıxanım, itkin düşənim,
Qəlbimə, gözümə miskin düşənim,
Hansı ayrılıqdan, ünvandan keçib,
Zamandan, məkandan, insandan keçib
Mənə yol almısan?
Axır gəlmisən.
Həqiqət gəlmisən, yuxu gəlmisən.
Əliqoynundayam sən gedən gündən,
Sən gedən vədədən gözüm çaş qalıb.
Mən itkin düşənəm cərgədən onda,
Nisgillər ömrümlə başabaş qalıb.
Nə dosta-tanışa qoşula bildim,
Nə könlüm açıldı, gözüm sevindi.
Payız ola bildim, qış ola bildim,
İçimdə bir qansız dözüm sevindi.
Ay yoxa çıxanım, itkin düşənim,
A dostum, qohumum,
                    yadım, düşmənim,
Sözdə hıçqıranım, qəlbdə üzənim,
Hissim, duyğum, nəğməm, a şah əsərim,

Sənsiz nə gələrdi əlimdən mənim?!
A gözüm toxluğu, a şax qamətim,
Boyumdan, ömrümdən daşan qamətim,
Gəl bəxt qapısını aç əllərinlə,
Min yol öldür məni əcəllərinlə.
Əlimdən qələmim düşməsin, qayıt,
Qəlbimdə duyğular kişnəsin, qayıt.
Sənsiz ömrüm-günüm hədərdi, qayıt,
Qayıt, ay ilhamım - a dərdim, qayıt.

*2002*

# KİTABDAKILAR

## HƏR GÜNÜM – HƏSRƏT YUVASI


Sevgi məktubları .................................................. 4
Gündəliklər ........................................................ 7
Haçan gəlirsən ..................................................... 10
Vaxtımı bölürdüm ................................................. 11
Əlvida ................................................................ 12
Gedirəm .............................................................. 14
Beləsən də .......................................................... 16
Qısqanclıq .......................................................... 17
Son gedən elə mən olum ....................................... 19
Səni bu oyunda .................................................... 21
Ömürdən pay ....................................................... 23
Sevgi də işıqdı, qaranlığı var ................................ 25
Görsənə .............................................................. 26
Uyuyaydım daş sinəndə ....................................... 27
Həsrət toranlığında .............................................. 28
Niyəsini özün de .................................................. 29
Son mənzilə köçəndə ............................................ 31
Dəyanətim sipər ola ............................................. 33
Barmağımı tutub .................................................. 34
Bu ağrıya qan udduram gərək mən ....................... 37
Cəsarətim elə bircə dəfə ........................................ 38
Qaçıb qurtara da bilmirəm .................................... 41
Kiminləsən .......................................................... 43
Bir də yanılmasın ................................................. 44
Səndən keçən həyat .............................................. 46
Hər günüm – həsrət yuvası .................................... 47
Qapını həsrətimin ................................................. 48

## QARA – RƏNGLƏRİN AĞIDIR


Hər şey təzədən başlayır........................................ 51
Hər gün ölüm ayağıdır.......................................... 52
Haqqım qarabağ.................................................. 53
Tanrım mənə əzab versin deyərdim....................... 55
Daha nə gözləmək................................................ 58
Çadır şəhərcik...................................................... 59
Ay arxalı adamlar ................................................. 61
Ruhum qaranquş yuvasına qayıdacaq .................. 62
Bu çinar elə ağlayır .............................................. 65
Yüklənib gedirəm ömrü daş kimi.......................... 66
Hamıya qaynamaz qanı dünyanın ......................... 68
Hər gecə saat üçdə ............................................... 70
Sayımmı................................................................ 72
Allah, bu nə planet................................................ 74
Tanımaq olmayır ................................................. 76
Ömrümdə möhnət yükü........................................ 77
Yalanmış.............................................................. 78
Ayıla bilərəm dərd ölümündən.............................. 80
Tükəndi ............................................................... 82
Qaçqın harayı ...................................................... 84
Qısılıb içinə dünyanın boyu ................................. 86
O günləri görüb gəldik ......................................... 88
Quş qripi ............................................................. 89
Toyuqların bətnində öldü ..................................... 91
Ad günümüz ........................................................ 92
Üzünə zəfəran çəkilmişdi ..................................... 93
Yenə «bu dünya» .................................................. 94
Sizi aldadırlar....................................................... 96
Təbiət canını ........................................................ 98
Küçə..................................................................... 99
Kim tanıyar onları ................................................ 100

Bunca yük ola bilməz özünə qurğuşun da .............. 101
Vergi ..................................................................... 103
Ötən ilin son yuxusu ............................................. 105
Qızları qoymayın bara getməyə ............................. 107
Ölüm yelləncəyi..................................................... 108
Mənimlə ................................................................ 110
Əlindən ................................................................. 111
Yarımçıq şeir ........................................................ 112
Körpə təbəssümüylə .............................................. 113
İmic ....................................................................... 114
Beş metr ................................................................ 116
Sən mənə lazım deyilsən ....................................... 117
Xəstə ovqatıma hər gün ........................................ 118
Səhər-səhər ........................................................... 119
"Qismət" deyib ..................................................... 121
Deyil daha ............................................................. 123
Gecələrdən sızıb gələn ........................................... 124
Keçir ..................................................................... 125
Əlimdə .................................................................. 126
Sevinməyə bəhanə yox .......................................... 128
Tilsimləyin qapıları ............................................... 129
Neyləyim ............................................................... 130
Sən mənim qəlbimin ............................................... 132
Ucalığında dur ....................................................... 133
Yəqin .................................................................... 134
Bizdən qabaqda ..................................................... 135
Fələyin çərxi .......................................................... 137
Ay ürək ................................................................. 139
Cümə axşamı üçün elegiya .................................... 140
Nə rəngdə ............................................................. 141
Ötən günlər ........................................................... 142

## ÇIXIM TALEYİMDƏN, DÖRD YANA QAÇIM


Söz və mən ........ 144
Mən buyam ........ 146
İnsanın yeri ........ 148
Dilək yaxasına dönnəm yenidən ........ 150
Fraqmentlər ........ 153
Miniatürlər ........ 155
Bir az məndən kənar dolan ........ 157
Daşına baş qoyacağım ........ 158
«Sözümün canı var» dedin ........ 159
Yorulmuşam, yorğunluqdan ........ 160
Bu bahar da ........ 161
Ömürdən kam alım ........ 163
Baş girləyirəm ........ 165
Bu ili ........ 167
Dost küsəndə ........ 169
Ovlayıb apardı, bir ovçum vardı ........ 170
Ağ günün ağ bayrağını ........ 171
Bu güllə dəydi-dəymədi ........ 172
İndi bildin-bilmədin ........ 173
Odur ki ........ 174
Sorğu ........ 175
Yenə qəlbim ........ 176
Bir az borc aldım ........ 177
Səni vəd verdiyin yerə kimi ötürdüm ........ 178
Qapını kimin üzünə açım? ........ 179
Sübut aşkarlıqda ........ 180
Çəkisini itirmiş adam ........ 181
Hövsələmi çəngələməkdən səbrim didik-didikdir ... 182
Ağlım məni su aşağı axıdıb ........ 183
Qapımın bir gözü var ........ 184
Mini şerlər ........ 185

Yağışlı yay gecəsi .................................................. 186
Dərdin-başı aşağıdır.............................................. 189
Qədəmi uğurlu qardaş........................................... 190
Bir gözəl görəydim ................................................ 192
Məktuba cavab ...................................................... 193
Ay xanım ............................................................. 195
Saçıma bir əl çək ................................................... 196
Səni ...................................................................... 197
Ömrün qışından sıyrılıb ........................................ 198
Vurub keçək altmışı .............................................. 199
Qalmadı ................................................................ 200
Daşa böhtanmı atırsan?......................................... 201
Damlalar asılıb ..................................................... 202
Səninləyəm, azadlığım........................................... 203
Allahına şükr elə ................................................... 204
Mən gərək ............................................................ 205
Bu payız ............................................................... 207
Mən özümü yandırıram ......................................... 208
Dünya belə gözəldisə............................................. 209
Əzabımla baş-başayam ......................................... 211
Bu qızın ................................................................ 212
İnşallah ................................................................ 214
Davası qalıb .......................................................... 215
Qaldım dörd kölgəmin dörd divarında ................. 216
Yollar.................................................................... 217
Gec edər, güc edər ................................................. 218
Yazdıqlarım itib-batdı .......................................... 219
Qapım .................................................................. 220
Səni açmadığım kitab kimi örtdüm ........................ 221
Əllərim məni üzü üstə qapayır............................... 222
Əvvəlcə................................................................. 223
Əlimi qaldırıb yellədim ardınca ............................. 224
Qapı ..................................................................... 225

Qonşum ............................................................ 227
Keç günahımdan ................................................... 229
Yaxşı ki, beş qarış yer bizimlədir........................... 230
Daha mənimki qurtardı ........................................ 232
İllər nə sürətlə keçir, ilahi..................................... 233
Bilmirəm ............................................................. 234
Taqətim .............................................................. 235
Qoyan deyil.......................................................... 236
Gəl, daha qəm çəkmə sən...................................... 237
Sözün açığı........................................................... 238
Söz torbası açılmadı.............................................. 239
Bütün əzablarımın üstündən xətt çəkmişəm........... 240
Pişik balası .......................................................... 241
Diz çöküb şerin uzaqlığına.................................... 242
Barmaqlarım asılqan ömrün əzabına ..................... 243
Hər kəs öz əynindədir........................................... 244
Dur, get, üzünü yu ................................................ 246
Niyə unudub məni ................................................ 247
Qayıt, ay ilhamım, a dərdim, qayıt......................... 248

**FİRUZƏ MƏMMƏDLİ**

# «DİLƏK YAXASINA DÖNNƏM YENİDƏN»

**«VEKTOR» NƏŞRLƏR EVİ**
**BAKI-2006**

Redaktor: **Elçin İSGƏNDƏRZADƏ**
Mətbəənin direktoru: **Rafiq ƏSGƏRLİ**
Bilgisayar dizayneri: **Aydan ELÇİN**
Korrektor: **Afaq CABBARQIZI**
Bilgisayar yığımı: **Nargilə ƏLİQIZI**

Yığılmağa verilmiş: 12.12. 2006
Çapa imzalanmış: 25.12. 2006
Kağız formatı: 70x100 1/16
Fiziki çap vərəqi: 8
Sifariş: 217
Sayı: 500

«VEKTOR» BEYNƏLXALQ ELM MƏRKƏZİ
«VEKTOR» NƏŞRLƏR EVİ
Ünvan: AZ1018. Bakı şəh, Əhmədli qəs, Zığ yolu, 20 q
tel: (+99450)5627000; (+99412) 4471404
faks: (+99412) 4729234
e-mail: isgenderzadeh@rambler.ru
**www.vektor.az**